

## YAP Gənclər Birliyinin növbəti iclası keçirilib

6

Səs

№ 190 (6390) 19 oktyabr 2021-ci il. Qiyməti 40 qəpik

2




# İlham Əliyev: “Müharibə artıq tarixdə qaldı, biz gələcəyə baxmalıyıq!”

“Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz"

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan xalqını təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: ”Bu gün biz dövlətin suverenliyini, xalqımızın azadlığını, möhkəm iradəsini və həmrəyliyini təcəssüm etdirən Müstəqilliyin Bərpası Gününü qeyd edirik. Bütün Azərbaycan xalqını bu bayram münasibətilə səmimi-qəlbdən təbrik edir, həmvətənlərimizin hər birinə möhkəm cansağlığı, sevgi, sevinc və xoşbəxtlik arzulayıram. Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyirəm. Qoy Azərbaycanın dövlət müstəqilliyi, ölkəmizdəki sülh və əmin-amanlıq əbədi olsun!”.

# Qiymət artımı prosesində sosial ədalət prinsipi



## Ukraynalı deputat: “Qarabağda gördüklərimizi unutmayacağıq”



İldırımsürətli müharibənin nəticələri onu deməyə əsas verir ki, Azərbaycan bu müharibəyə ancaq modern Silahlı Qüvvələrini yaratmaqla deyil, mükəmməl informasiya təhlükəsizliyi...

6

## Tarif Şurasının qərarı əhaliyə, ələlxüsus da aztəminatlı əhali kateqoriyası üçün ciddi təsir etməyəcək

8

## Adam yeyən ayı... axtarılır



İrkutsk vilayətinin Polovino-Çeremxovo kəndində kənd təsərrüfatı müəssisəsində gözətçi işləyən 45 yaşlı sakini ayı öldürərək...yeyib. Bunu İrkutskda fəaliyyət göstərən ”Tayşet24” xəbər...

16

## Siqaret çəkən xanımlara cəmiyyətin baxışı necədir?



11



## “Bavariya”dan qol rekordu!

“Bavariya” özünə məxsus qol rekordunu təkrarlayıb. Qol.az ”Opta”ya istinadən xəbər verir...

16

## “Sosial sahədə aparılan islahatlar xüsusilə son illərdə inqilabi xarakter alıb”

“Möhtərəm Cənab Prezidentimiz İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamı əhalinin sosial rifahının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Bu günlərdə Möhtərəm Prezident Cənab İlham Əliyev tərəfindən...

7



## “Sərəncam birbaşa 2 milyona yaxın insanı əhatə edəcək”

7

“Bildiyimiz kimi, ötən gün Tarif Şurası yeni qiymət dəyişikliyi barədə qərar qəbul etdi. Qurumların yeni tariflərlə bağlı...



## Sənət xadimlərinə dövlət qayğısı davamlıdır

10

Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdən biri olaraq...




# İlham Əliyev:

## “Müharibə artıq tarixdə qaldı, biz gələcəyə baxmalıyıq!”

“Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibə zamanı əsl vətənpərvərlik və qəhrəmanlıq göstərmişdir. Azərbaycan Ordusu düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək tarixi ədaləti bərpa etdi və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Füzuli ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı çıxış edərkən bildirib. 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə Azərbaycanın Zəfər tarixini əbədiləşdirdi. Azərbaycan işğal altında olan torpaqları erməni təcavüzkarlarından təmizləyərək, yeni bir həyata başlayıb. İşğaldan azad edilmiş şəhərlər, kəndlər, qəsəbələr və bu ərazilərdəki mədəni abidələr bərpa olunur, abadlıq-quruculuq işləri aparılır. İrimiqyaslı layihələrin reallaşması tezliklə bu ərazilərin müasir şəhərə, mərkəzə çevriləcəyinə əminlik yaradır. Dövlət başçısının işğaldan azad olunan ərazilərə hər səfəri və yeni təməllərin qoyulması, abadlıq və quruculuq işləri ilə yaxından tanış olması, yerində tapşırıq və göstərişlərin verilməsi tezliklə bu ərazilərin sakinlərinin öz ata-baba yurdlarına qayıdacaqlarından xəbər verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın oktyabrın 17-də Füzulinin işğaldan azad olunmasından bir il sonra bu əraziyə səfəri və orada görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərin verilməsi, təməlqoyma mərasimləri artıq qısa bir zamanda bu ərazinin yeni, müasir bir məkana çevriləcəyindən bir müjdədir.

> “Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz"







### ”FÜZULİ NƏZARƏTİMİZƏ KEÇƏNDƏN SONRA ARTIQ ŞUŞA İSTİQAMƏTİNƏ GETMƏK ÜÇÜN DAHA GENİŞ İMKANLAR AÇILDI”

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı Ordusu 30 ilə yaxın həsrətə son qoyaraq erməni təcavüzkarlarına dərs vermiş oldu. Hər cəbhədən aldığımız qələbə xəbərləri insanlarda böyük sevinc hissi yaşadırdı və hər gün eşitdiyimiz qələbə sorağı bizi zəfərə doğru aparırdı.

Ardı Səh. 3



# İlham Əliyev: “Müharibə artıq tarixdə qaldı, biz gələcəyə baxmalıyıq!”



Əvvəli Səh. 2

Dövlət başçısının torpaqlarımızın işğalçılardan azad olunması ilə bağlı xalqa yeni qələbə sevincini yaşatması müharibənin tezliklə bitəcəyindən xəbər verirdi.

”Cəbrayıldan, Hadrutdan sonra üçüncü böyük yaşayış məntəqəsi işğalçılardan azad edildi”, - deyən Cənab Prezident bildirib ki, Füzuli uğrunda çox şiddətli döyüşlər gedirdi, bir neçə gün ərzində şəhərin ətrafında çox ciddi əməliyyatlar aparılırdı: ”Düşmən müqavimət göstərirdi, amma buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirdi. Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz”.

Füzuli şəhərinin azad olunmasının əhəmiyyətinə nəzər salan Cənab Prezident bu şəhərin strateji mövqedə yerləşməsi ilə bağlı olduğunu bildirib: ”Füzuli nəzarətimizə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açıldı. Bir daha demək istəyirəm ki, Ermənistan tərəfi burada çox güclü istehkamlar qurmuşdu, bir neçə xətt istehkamdan ibarət müdafiə xətti qurulmuşdu. Otuz il ərzində düşmən burada möhkəmlənirdi və bu istehkamları yarmaq, keçmək xalqımızın bir daha böyük qəhrəmanlığını, fədakarlığını göstərmişdir. Təbii ki, bunu görən düşmənin gözü qorxdu. Gördülər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar. Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi”.

> “Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi”







### ”BİZ ÖZ ZƏFƏR MİSSİYAMIZI MƏHZ FÜZULİ RAYONUNDAN BAŞLAMIŞIQ”

Əlbəttə ki, qələbə əzmi ilə vuruşan əsgər və zabitlərimiz yalnız irəliyə doğru addımlayırdılar. Ölümün gözünə dik baxmağı bacaran vətən oğulları bir qələbədən yeni bir qələbəyə doğru irəliləyirdilər. Bu güc inamdan irəli gəlirdi. Bu güc ordunun gücü idi. Bu güc haqq və ədalətdən aşılanan güc idi. ”Füzuli azad olunandan 3 gün sonra Zəngilan şəhəri azad edildi, ondan beş gün sonra Qubadlı, ondan sonra biz Laçın dəhlizinə çıxdıq və beləliklə, müharibənin taleyi heç kəs üçün sirr deyildi”, - deyə Cənab Prezident bildirib. Bizim uğurlu əməliyyatlarımızın məhz Füzuli rayonundan başlandığını qeyd edən dövlət başçısı bildirib ki, müharibənin ilk günündə - sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi: ”Yəni, biz öz Zəfər missiyamızı məhz Füzuli rayonundan başlamışıq”.

### ”BƏLKƏ DƏ DÜNYA PRAKTİKASINDA, DÜNYA TARİXİNDƏ BU QISA MÜDDƏT ƏRZİNDƏ, MİNALANMIŞ ƏRAZİDƏ BEYNƏLXALQ HAVA LİMANLARI TİKİLMƏMİŞDİR”

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Füzuli rayonda da abadlıq-quruculuq işlərinə start verilib. ”Biz Füzuli şəhərini və Füzuli rayonunun kəndlərini bərpa edəcəyik”, - deyən Prezident ötən bir il ərzində bu istiqamətdə böyük işlər görüldüyünü diqqətə çatdırıb: ”Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar.

Ardı Səh. 4

"Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək"



# İlham Əliyev:

## "Müharibə artıq tarixdə qaldı, biz gələcəyə baxmalıyıq!"

Əvvəli Səh. 3

"Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar"

Bu bir il ərzində biz çox genişmiqyaslı quruculuq işləri ilə, eyni zamanda, şəhər və kəndlərimizin bərpası ilə də məşğul olmuşuq. Bu proses çox mürəkkəbdir. Burada düzgün planlaşdırma aparılmalı, minalardan təmizləmə işləri görülməlidir. Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur - yüz mindən çox











mina basdırılıb. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq".

Artıq Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıb və birinci infrastruktur layihələri də məhz Füzulidə başlanıb. "Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib", - deyən dövlət başçısı bildirib ki, bu gün hazır hava limanı ilə tanış olarkən mən bir daha gördüm ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir.

Xatırlatmaq yerinə düşər ki, 2021-ci ilin yanvarında Azərbaycan Prezidenti Füzulidə beynəlxalq hava limanının tikintisi barədə Sərəncam verdi. Gələcək hava limanının təməlqoyma mərasimi həmən ilin yanvar ayının 14-də baş tutdu. Hava limanının uçuş zolağının inşasının ilin sonuna kimi tamamlanması planlaşdırılırsa da, artıq avqust ayında uçuş-enmə zolağı hazır idi və ilk sınaq təyyarəsini qəbul etmişdi. Əlbəttə ki, tikinti getdiyi ərazi döyüş bölgəsi olduğundan, düşmən tərəfindən minalanmışdır. Bu amil də tikintinin sürət tempinə təsir göstərmişdir. Belə ki, tikinti ilə yanaşı, minalardan təmizləmə işi paralel aparılmışdır.Bu gün Füzuli quruculuq meydanına çevrilib. Cənab Prezidentin vurğuladığı kimi, "Biz Füzulidən Şuşaya elektrik xətləri çəkdik. Çünki Şuşa azad olunandan sonra mənfur düşmən bütün elektrik xətlərini kəsib, hətta su xəttini də partlatmışdır və Şuşa işıqsız qalmışdır, özü də qış aylarında. Ona görə çətin şəraitdə Füzulidən Şuşaya elektrik xətləri çəkildi. Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyulmuşdur".

Yollarla bağlı görülən işlərə gəlincə isə, Prezident "İndi siz gələndə yeni yoldan istifadə etdiniz. Görürsünüz, biz bu yolları qısa müddət ərzində çəkdik", - deyə bildirib: "Biz hətta Şuşaya qədər Zəfər yolunu çəkdik və indi Füzuli-Şuşa magistral yolunun çəkilişi gedir. Hazırda Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarında işlər gedir. Bu gün Füzuli-Ağdam istiqamətində yeni yolun təməli qoyuldu". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər. 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur. Məhəllədə, həmçinin iş mərkəzlərinin, ticarət, ictimai iaşə, mədəniyyət və məişət-kommunal obyektlərinin yerləşməsi nəzərdə tutulur. Yaradılacaq şərait doğma yurdlarına qayıdacaq rayon sakinləri üçün rahat şəhər mühitinin təşkilində mühüm rol oynayacaq. Füzuli şəhərində dövlət başçısının iştirakı ilə Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi də keçirilib.

### "BÜTÜN BU İŞLƏRİ GÖRƏRƏK BİZ BİR MƏQSƏDİ GÜDÜRDÜK Kİ, KEÇMİŞ KÖÇKÜNLƏRİ TEZLİKLƏ ÖZ DOĞMA TORPAQLARINA QAYTARAQ"

Əlbəttə ki, bu ərazidə görüləsi işlər çoxdur. Şəhərin mərkəzində Füzuli Memorial Kompleksi yaradılacaq. İşğal muzeyi, Memorial Kompleks və ona bitişik Zəfər parkı salınacaq. Həmçinin yüksək bir məkanda Bayraq meydanı yaradılacaq. Bayraq meydanı şəhərin ən yüksək nöqtəsində salınacaq və Füzulinin yeni simvoluna çevriləcək. "Bütün bu işləri görərək biz bir məqsədi güdürdük ki, keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytaraq. Bu gün təməl daşının qoyulması mərasimlərində iştirak edərkən biz artıq bu günü də böyük dərəcədə yaxınlaşdırmışıq", - deyə Prezident bildirib: "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi. Artıq göstəriş verildi və vəsait ayrıldı, digər şəhərlərimizin – Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Bütün bu işləri biz görəcəyik".

Bəli, Cənab Prezidentin bildirdiyi kimi, "Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!

*Prezident İlham Əliyev Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciət edib*

**Sizi xalqımızın dövlətçilik ənənələrinin yenidən dirçəldilməsinin - müstəqilliyimizin bərpa edilməsinin 30-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm.**

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşdür. Baş verənlər bir daha göstərmişdir ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.



Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.

Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Son illər ərzində iqtisadiyyatımızın həcmi üç dəfədən çox artmış, güclü iqtisadi infrastruktur yaradılmış, mədəni irsimizin qorunması, inkişafı və təbliğində, təhsil, səhiyyə və digər sosial sahələrdə ciddi uğurlar əldə edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkününün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır.

Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır.

Bizə Zəfər bəxş etmiş bütün igid oğullarımıza bir daha minnətdarlığımızı bildirir, Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

Hörmətli həmvətənlər!

Mənim təşəbbüsümlə irəli sürülmüş qanun layihəsinin qəbul olunması ilə bu ildən etibarən 18 Oktyabr ölkəmizdə Müstəqilliyin Bərpası Günü kimi qeyd ediləcəkdir. Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq. Yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!



# Azərbaycanla Qətər arasında əlaqələr müxtəlif sahələrdə uğurla inkişaf edir

*Prezident İlham Əliyev Qətər Dövlətinin Baş nazirinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri, Qətər-Azərbaycan Hökumətlərarası Komissiyanın həmsədri Məhəmməd bin Əbdülrəhman Al Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taninin salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Qətər arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Al Taninin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin və regional məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirildi. Eyni zamanda, Bakıda keçiriləcək birgə hökumətlərarası komissiyanın iclasının əhəmiyyətinə toxunularaq, iqtisadi və ticarət sahələrində əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı ticarətin həcminin artırılmasının vacibliyi vurğulandı. Qarşılıqlı investisiya, eyni zamanda, üçüncü ölkələrə investisiya qoyuluşu üçün böyük potensialın olduğu qeyd edildi.

Söhbət zamanı, həmçinin postpandemiya dövründə turizm sahəsində əməkdaşlığın perspektivləri də müzakirə olundu.

# "Azərbaycanla Türkiyə arasında sosial çalışma sahəsində də yaxşı iş birliyi mövcuddur"

*Prezident İlham Əliyev Türkiyənin əmək və sosial müdafiə nazirini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat Bilgini qəbul edib. AZƏRTAC xəbər verir ki, Vedat Bilgin Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.**



Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi. Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olunaraq, Türkiyə Respublikasının əmək və sosial müdafiə nazirinin səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Görüşdə digər sahələrdə olduğu kimi, sosial çalışma sahəsində də yaxşı iş birliyinin mövcud olduğu vurğulanaraq, bu sahədə təcrübə mübadiləsinin əhəmiyyətinə toxunuldu. Eyni zamanda, əmək bazarının tənzimlənməsi, Türkiyədə çalışan Azərbaycan vətəndaşlarının, Azərbaycanda çalışan Türkiyə vətəndaşlarının sosial müdafiəsi məsələlərinin müzakirəsinin də önəmi qeyd olundu.

# IDEA İctimai Birliyi ilə Ümumrusiya Təbiəti Mühafizə Cəmiyyəti arasında saziş imzalanıb



**Moskvada səfərdə olan Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Ümumrusiya Təbiəti Mühafizə Cəmiyyətinin sədri və BMT Ətraf Mühit Proqramının (UNEP) xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaceslav Fetisov arasında görüş keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüş çərçivəsində IDEA İctimai Birliyi ilə Ümumrusiya Təbiəti Mühafizə Cəmiyyəti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Niyyət Sazişi imzalanıb.

Saziş ekologiya və dayanıqlı inkişaf sahəsində təhsil və maariflendirmə, gənclərlə iş və onların ekoloji problemlərin həllinə cəlb edilməsi və digər istiqamətlərdə birgə səy və layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Söhbət zamanı tərəflər təbiətin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə üzrə ölkələrimizdə və beynəlxalq səviyyədə birgə təşəbbüslərin uğurla həyata keçiriləcəyinə əminlik ifadə ediblər. Həmçinin yaxın vaxtlarda Qlazqo şəhərində keçiriləcək BMT-nin iqlim konfransı ilə bağlı ümid və gözləntilər, eləcə də qlobal istiləşmə ilə mübarizə sahəsində birgə fəaliyyət və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Pakistan qəzetlərində Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümü ilə bağlı məqalələr dərc olunub

Pakistanın "National Herald Tribune" və "Daily Times" qəzetlərində müstəqilliyimizin 30-cu ildönümü ilə bağlı məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, materiallarda bu il oktyabrın 18-də Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümünün qeyd olunduğu vurğulanır. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadığı və 1991-ci il oktyabrın 18-də müstəqilliyin bərpa edildiyi bildirir.



Aliyev eliminated the chaos and anarchy, economic, political, spiritual and psychological tensions. Independent Azerbaijan marked a new course of development. Thus, he made the country's independence eternal and irreversible.



Today, Azerbaijan, under the leadership of President Ilham Aliyev, is one of the rapidly developing countries of the world from not only economic points of view, but also all spheres.

Azerbaijan has become a leading country in the region, which has achieved a stable domestic political situation and sustainable economic development.

Azerbaijan has become a major player, actively initiating huge projects to bring stability and security to the region. The Baku-Tbilisi-Ceyhan oil pipeline, Baku
Tbilisi-Kars railway route, the South Caucasus Pipeline, TANAP and TAP projects could greatly

Müstəqilliyin ilk illərinin gənc suveren bir ölkə üçün asan olmadığını, Azərbaycanın böyük çətinliklərlə üzləşdiyini, bir tərəfdən Ermənistan tərəfindən torpaqlarının hərbi təcavüzünün davam etdiyi, digər tərəfdən isə ölkədə iqtisadiyyatın iflic vəziyyətə düşdüyü, daxili sabitliyin pozulduğu, eləcə də Azərbaycan dövlətçiliyi üçün konkret təhdidlərin və risklərin olduğunu qeyd edən müəllif məhz həmin çətin dövrdə Azərbaycan xalqının tələbi ilə ulu öndər Heydər Əliyevin ölkəyə qayıtdığını və 1993-cü ildə hakimiyyətə gəldiyini xatırladır.



October 18: A glorious page in Azerbaijan's history

Riaz Ahmed Malik
Group Editor
Daily National Herald Tribune and Daily Al-akhbar

The first years of independence was not easy for the young sovereign country and it faced tremendous difficulties. On the one hand, the Armenian military aggression continued, on the other hand, the economy was in a paralyzed due to the collapse of the existing system, and internal stability was disturbed in the country. There were concrete threats and risks to Azerbaijani statehood.

Məqalələrdə Heydər Əliyevin ölkədəki xaos və anarxiyanı, iqtisadi, siyasi, mənəvi və psixoloji gərginliyi aradan qaldırdığını, bununla da müstəqil Azərbaycanın yeni inkişaf yoluna imza atdığı vurğulanır, Ulu Öndərin apardığı uzaqgörən siyasət nəticəsində respublikamızın müstəqilliyinin əbədi və sarsılmaz olduğu diqqətə çatdırılır.

Yazılarda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə dünyanın sürətlə inkişaf edən ölkələrindən biri olduğu qeyd olunur, ölkəmizin bölgəyə sabitlik və təhlükəsizlik gətirmək üçün nəhəng layihələrə imza atdığı bəyan edilir. Həmçinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Cənubi Qafqaz Boru Kəməri kimi layihələr barədə məlumat verilir. Azərbaycanın həyata keçirdiyi enerji layihələrinin nəinki xalqın rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə xidmət etdiyi xüsusi vurğulanır. Azərbaycanın müasir nəqliyyat infrastrukturunu formalaşdıran nəqliyyat dəhlizlərinin yaradılmasında fəal rol oynadığı qeyd edilir, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsinin təsadüf olmadığı bildirilir.

Eyni zamanda, Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmlə əməkdaşlıq da daxil olmaqla, regional və qlobal səviyyədə fəaliyyətini genişləndirdiyi qeyd edilir, Azərbaycanın regionun liderі və beynəlxalq aləmdə etibarlı tərəfdaşı kimi tanındığı barədə oxuculara məlumat verilir.

Yazılarda bu il bu bayramın xüsusi qeyd olunduğu vurğulanır, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun 30 ilə yaxın Ermənistanın işğalı altında qalan ərazilərimizi azad etdiyi, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetirdiyi diqqətə çatdırılır.

Müəllif, eyni zamanda, Qarabağın işğaldan azad olunmasından sonra Azərbaycanın o torpaqlarda apardığı bərpa-quruculuq işlərindən bəhs edir, regionda yeni reallığın yarandığını və bunun bölgə ölkələrinə iqtisadi fayda gətirəcəyini bildirir. Məqalələrdə Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğu da xatırladılır.



# YAP Gənclər Birliyinin növbəti iclası keçirilib

**Oktyabrın 16-da Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin V iclası keçirilib. SİA xəbər verir ki, iclasda Gənclər Birliyinin cari fəaliyyəti və qarşıda duran vəzifələrin icrası ilə bağlı bir sıra məsələlər müzakirə olunub.**



Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ötən dövr ərzində görülən işlərdən bəhs edib. Bildirib ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin 7 sentyabr 2021-ci il tarixli qərarına əsasən YAP Gənclər Birliyinin Əsasnaməsi qəbul edilib. Əsasnamədə Gənclər Birliyi haqqında ümumi müddəalar, fəaliyyət istiqamətləri, fəaliyyətin təşkili və iclasların keçirilmə qaydası kimi məsələlər öz əksini tapıb.



YAP Gənclər Birliyi tərəfindən sentyabr ayı ərzində "Nizami Gəncəvi İli" çərçivəsində "Ümumrespublika Xəmsə Festivalı"nın keçirildiyini qeyd edən B.İslamov layihədə ümumilikdə YAP üzvü və bitərəf olmaqla 420 nəfər gəncin iştirak etdiyini deyib. Bundan əlavə "I Davamlı İnkişaf Məktəbi" iştirakçılarının layihənin sonuncu təqdimat mərhələsində olduğunu da diqqətə çatdırıb.

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının Vətən müharibəsinin ildönümünə həsr olunan Tədbirlər Planı çərçivəsində YAP Gənclər Birliyi tərəfindən silsilə layihələr icra olunur. Eyni zamanda YAP Gənclər Birliyinin xarici əlaqələri genişlənir, Türkiyə, Ukrayna və Qazaxıstanın hakim partiyalarının gənclər təşkilatları ilə qarşılıqlı təmaslar həyata keçirilir.

Daha sonra YAP Gənclər Birliyinin sədr müavinləri Sevinc Qasımova, Fəsli Nəbiyev və Gənclər Birliyinin üzvləri Ülkər Qəhrəmanova, Ülviyyə Axundova, İlqar Axundov, Ülkər Həsənova, Əkbər Cəlilov, Azad Manaflı, Fərid Sadıxlı, Nərgiz Babayeva, İlqar Quliyev, Coşqun Hidayətov, Salman Salmanov, Emil Aslanlı, Nərmin Heydərova, Niyaz Əliyev, Ayxan Tağızadə, Anastasiya Lavrina və Sabir Rüstəmov Gənclər Birliyinin həyata keçirəcəyi növbəti yeni layihələr və təşəbbüslər ətrafında fikir mübadiləsi aparıblar.

## Ukraynalı deputat: "Qarabağda gördüklərimizi unutmayacağıq"



İldırımsürətli müharibənin nəticələri onu deməyə əsas verir ki, Azərbaycan bu müharibəyə ancaq modern Silahlı Qüvvələrini yaratmaqla deyil, mükəmməl informasiya təhlükəsizliyi konsepsiyası ilə hazırlaşıb. Biz işğaldan azad edilmiş Ağdam rayonunda qorxunc, heç vaxt unuda bilməyəcəyimiz mənzərə ilə yanaşı, Azərbaycan dövlətinin qurmaq, yaratmaq iradəsini gördük.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan parlamenti və Diasporla İş üzrə Dövlət Komitəsinin dəvəti ilə ölkəmizdə səfərdə olan Ukrayna Ali Radasının Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Valeriy Kolyux deyib.

Müstəqilliyin Bərpası Günündə Azərbaycanda olmaqdan və bu günü Azərbaycan xalqı ilə birlikdə qarşılamaqdan məmnunluğunu bildirən Kolyux uzun illər işğal altında qalmış ərazilərin azad edilməsini möhtəşəm hadisə adlandırıb. Ağdamda gördükləri ilə bağlı təəssüratlarını bölüşən ukraynalı deputat deyib: "Qarabağa səfərimiz çərçivəsində Ağdam şəhərində xarabalıqların şahidi olduq. Gördük ki, işğalçı qüvvələr orada hər şeyi dağıdıb-söküb, əraziləri minalayıb. Bununla belə, Azərbaycan tərəfindən görülən bərpa-quruculuq işləri bu torpaqların xoş gələcəyinə ümidimizi artırdı".

Ukrayna parlamentindəki "Xalqın xidmətçisi" fraksiyasının təmsilçisi Lyudmila Marçenko Ağdamda gördüklərinin təsirindən tezliklə çıxa bilməyəcəyini söyləyib. O deyib: "Çünki orada gördüklərimiz Ukrayna üçün nəticə çıxarmalı nümunələr idi. Bu, qorxunc müharibə ilə bərabər, güclü, qurucu Azərbaycan dövlətinin iradəsini göstərirdi. Biz Azərbaycanın nələrin hesabına ərazi bütövlüyünü bərpa etdiyinin şahidi olduq".

Ukrayna Parlamentinin Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Vladimir Kreydenko vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdəki dağıntıların miqyasına baxmayaraq, orada aparılan tikinti və quruculuq işlərinin miqyası məhv edilmiş yerlərin qısa müddətdə müasir yaşayış məntəqəsinə çevriləcəyini deməyə əsas verir.

# “Sosial sahədə aparılan islahatlar xüsusilə son illərdə inqilabi xarakter alıb”






“Möhtərəm Cənab Prezidentimiz İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamı əhalinin sosial rifahının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Bu günlərdə Möhtərəm Prezident Cənab İlham Əliyev tərəfindən imzalanmış ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamı ölkə ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir”. Bu fikirləri ”Səs” qəzetinə açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib. O, qeyd edib ki, bir gerçəklikdir ki, bu gün dünya COVİD - 19 və maliyyə böhranı ilə mübarizə aparır: ”Qeyd etmək lazımdır ki, on ilə yaxındır ki, dünyanı bürüyən maliyyə böhranı pandemiya dönəmində daha da dərinləşdi və hətta ən inkişaf etmiş ölkələrdə belə çox ciddi problemlər yaratmışdı. Sözsüz ki, dünyanın bir parçası olan ölkəmiz də bu problemlərdən yan keçməmişdir. Xüsusi vurğulamaq lazımdır ki, bu iki problemlə bərabər uzun illərdir ki, üzləşdiyimiz məlum Qarabağ münaqişəsi və ondan qaynaqlanmış problemlər, eləcə də ötən il, işğal altında olan torpaqlarımızın azad olunması uğrunda apardığımız və möhtəşəm Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsi və bu müharibədən yaranmış yeni problemlər ölkəmizdə əlavə problemlər yaratmışdır. Nəzərə alsaq ki, böyük Qayıdış üçün azad olunmuş torpaqlarda aparılan quruculuq işləri dövlət üzərində, dövlət büdcəsində çox ağır yükdür. Bütün bunlara baxmayaraq, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin təməlində hər zaman olduğu kimi əsas istiqamət, hətta ən çətin vəziyyətlərdə belə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və həssas qrupun üzləşəcəyi problemin minimuma endirilməsi olmuşdur”. Bu mənada möhtərəm Prezidentimiz İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncam əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların sosial rifahının qorunmasının təmin edilməsi məqsədi daşıyır, - deyən M.İbrahimqızı bildirib ki, Sərəncam beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarının yumşaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır: ”Sərəncam aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsi və onların gəlirlərinin artırılması istiqamətində atılan addımların uzlaşdırılmasını bir növ tənzimləyir. Məlumdur ki, bu gün bütün dünya ölkələrində, hətta Avropanın inkişaf etdiyi ölkələrdə enerjidən tutmuş ərzağa və daşınmaz əmlakadək çox ciddi bahalaşma gedir. Sözsüz ki, belə proseslər bizim ölkəmizə də təsir edir. Bu səbəbdən Möhtərəm Prezidentimizin qəbul etdiyi bu qərar vətəndaşına, onun sosial qrupuna olan diqqətinin və qayğının nəticəsidir. Məhz Sərəncamdan irəli gələrək Nazirlər Kabinetinə əməkhaqlarının, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün konkret təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılır. Qeyd edim ki, artıq Sərəncamdan irəli gələn təkliflərin hazırlanmasına başlanıb”.

Millət vəkili onu da bildirib ki, sosial ödənişlərdə növbəti artımların edilməsini nəzərdə tutan bu Sərəncam vətəndaş rifahının təminatı və həssas qrupların sosial müdafiəsinin Prezident İlham Əliyevin siyasətində başlıca istiqamət olduğunu bir daha təzahür etdirir: ”Bildiyimiz kimi, sosial sahədə aparılan islahatlar, xüsusilə, son illərdə inqilabi xarakter alıb. Sosial islahat paketləri nəticəsində müavinət və təqaüdlərin, pensiya və əməkhaqlarının ciddi şəkildə artımı təmin edilib, yeni sosial təminat növləri təsis olunub. 2018-ci ilin əvvəli ilə müqayisədə ölkəmizdə orta aylıq nominal əmək haqqı məbləği 39%, əmək pensiyalarının orta məbləği 60%, sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezident tərəfindən verilən təqaüdlərinin orta məbləği 2,2 dəfə artıb. Son üç ildə ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5%-dən 2020-ci ildə 38%-ə yüksəlib, bu da aşağı gəlirli vətəndaşlarımızın rifahının artırılması, layiqli əmək haqqı hədəflərinə nail olunması və həmin nisbətin Avropa Sosial Xartiyası normalarına uyğunlaşdırılmasında ciddi irəliləyişdir. Ümumilikdə isə son üç ildə ölkəmizdə fərman, sərəncam, qanun və s. daxil olmaqla qəbul edilən 900-dən çox normativ-hüquqi akt əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edən sənədlər olub və sosial təminat növləri üzrə ödəniş alanların sayı 160 min nəfər artaraq 2,4 milyonu ötüb. ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” bu yeni Sərəncam ölkəmizdə sosial inkişafın davamlı xarakter almasını, sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların növbəti mərhələsinə keçidi təmin edir və ümumilikdə 1 milyon 800 min nəfərədək vətəndaşımızın rifahının daha da yaxşılaşmasına xidmət edəcək.

Bildiyimiz kimi, dünyada baş verən məlum problemlərə görə enerji daşıyıcılarının qiymətlərinin artması Azərbaycanda da qaçılmazdır. Əlbəttə, ölkəmizdə də yeni tariflərin tətbiqi labüd idi. Məhz bu Sərəncamın da mahiyyəti əslində təbii qaz və elektrik enerjisi üzrə tarif tənzimlənməsi ilə eyni zamanda maaşların yüksəldilməsi tariflərdəki artımların kompensasiya etmək üçün ciddi addımdır. Bu isə Azərbaycan vətəndaşının və onun rifahının hər zaman dövlət siyasətinin mərkəzində dayandığının göstəricisidir”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Sərəncam birbaşa 2 milyona yaxın insanı əhatə edəcək”



“Bildiyimiz kimi, ötən gün Tarif Şurası yeni qiymət dəyişikliyi barədə qərar qəbul etdi. Qurumların yeni tariflərlə bağlı açıqlamasından görünən odur ki, dövlət zərərlə işləyib, büdcəyə yük olan sahələri iqtisadi asılılıqdan çıxarmağa çalışır. Son dövrlər qurumların tabeliyinin artırılması əsas prioritet hesab olunur”. Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib. Onun sözlərinə görə, hazırda büdcə qarşısında xeyli tarixi vəzifələr var, bərpa, quruculuq işləri, təhlükəsizlik kimi mühüm çağırışlar mövcuddur: ”Təxminən qiymətlərin orta hesabla 20% artdığını nəzərə alaraq, qiymət dəyişmələri hər bir ailəyə əlavə xərc yaradacaq. Bu, birbaşa vətəndaşın sosial vəziyyətinə təsir edir”.

Deputat sözlərinə belə davam edib: ”Cənab Prezidentin əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında sərəncam imzalaması əhalinin sosial durumunun yaxşılaşdırılmasına yönəlmişdir. Sərəncam birbaşa 2 milyona yaxın insanı əhatə edəcək. Yeni qəbul olunacaq Dövlət Büdcəsi layihəsində sosial xərclərin əhəmiyyətli dərəcədə artırılması gözlənilir. Qeyd edim ki, təbii qaz və elektrik enerjisi üzrə tarif tənzimlənməsi ilə paralel olaraq maaşların və digər gəlirlərin yüksəldilməsi istiqamətində atılan addımlar tariflərdəki artımları kompensasiya etmək baxımından ciddi addımdır”.

***Ayşən Vəli***

# “Ölkəmizdə yürüdülən sosial rifah strategiyası davamlı xarakter daşıyır”

Prezident İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamı əməkhaqlarının, sosial müavinət və təqaüdlərin, digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırılması baxımından mühüm əhəmiyyət kəsb etməklə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasətinin davamıdır. Bu baxımdan bu ssərəncam növbəti sosial paketin hazırlanması üçün fundamental dövlət sənədi hesab oluna bilər. SİA xəbər verir ki, bunu açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov deyib.



Deputat billdirib ki, bu addım ölkə əhalisinin rifah halının yaxşılaşdırılması üçün aparılan sosial-iqtisadi siyasətin mühüm tərkib hissəsidir və bir daha təsdiləyir ki, ölkəmizdə yürüdülən sosial rifah strategiyası davamlı xarakter daşıyır:

”2018-ci ilin əvvəli ilə müqayisədə ölkəmizdə orta aylıq nominal əmək haqqı məbləği 39%, əmək pensiyalarının orta məbləği 60%, sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezidentin təqaüdlərinin orta məbləği 2,2 dəfə artıb.

Son üç ildə ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5%-dən 2020-ci ildə 38%-ə yüksəlib, bu da aşağı gəlirli vətəndaşlarımızın rifahının artırılması, layiqli əmək haqqı hədəflərinə nail olunması və həmin nisbətin Avropa Sosial Xartiyası normalarına uyğunluğunun təmin edilməsində ciddi irəliləyişdir. Ümumilikdə son üç ildə ölkəmizdə fərman, sərəncam, qanun və s. ibarət olmaqla qəbul edilən 900-dən çox normativ-hüquqi akt əhalinin sosial rifahın yaxşılaşdırılmasına xidmət edən sənədlər olub və sosial təminat növləri üzrə ödəniş alanların sayı 160 min nəfər artaraq 2,4 milyonu ötüb”.

A.Hüseynov vurğulayıb ki, yeni Sərəncam sərəncam beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarının yumşaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır: ”Yəni, aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsi onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılır. Bu məqsədlə Nazirlər Kabinetinə əməkhaqlarının, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılır.

Beləliklə, 2022-ci il yanvarın 1-dən ölkə üzrə 1 milyon 800 min nəfərədək vətəndaşın rifahının daha da yaxşılaşdırılmasını nəzərdə tutur, əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların sosial rifahının qorunması təmin ediləcək”.

# Denis Kislov: "Zəngəzur dəhlizi açıldıqda, İran qanunsuz qazanc kanallarını itirəcək"



Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın ”La Repubblica” qəzetinə verdiyi müsahibədə İsrailin azad edilmiş Azərbaycan torpaqlarında olması ilə bağlı Tehranın Bakıya qarşı irəli sürdüyü bütün ittihamları bir daha rədd edib. Ancaq görünür, İranda hələ də ritorikanı dəyişdirməyə çalışmırlar. Yaxın Şərq üzrə ekspert, Dövlət İdarəçiliyi üzrə elmlər doktoru, ”LLC Corporate Research and Consulting International Bureau” rəhbəri Denis Kislov Oxu.Az-a şərhində qeyd edib ki, İranın əsəbi reaksiyası Bakının Azərbaycan-İran dövlət sərhədində nəzarəti ələ alması faktı ilə izah oluna bilər: ”Ermənistan-İran sərhədinin Naxçıvana Zəngəzur dəhlizinin keçəcəyi kiçik bir hissəsi qalır. Bu, Tehranı bərk narahat edir”.

- Ondan başlayım ki, vəziyyətin birbaşa qarşıdurma ilə nəticələnə biləcəyi ehtimalına şübhə ilə yanaşıram. Bu, daha çox İran tərəfindən ”əzələ nümayişi”dir, hansı ki, Tehranla Bakı arasındakı münasibətlərə istilik qatmır. İran sıxılmış vəziyyətdə qalıb, o, özünün regional oyunçu rolunu oynamaq istəyir. Eyni zamanda, Cənubi Qafqazda keçən ilki müharibənin nəticələrinə əsasən, kənar oyunçular mövqelərini gücləndirdilər. Rusiya onsuz da bölgədə idi, ancaq Türkiyə və İsrailin rolu artdı. Eyni zamanda, əlbəttə ki, Azərbaycanda hər hansı bir İsrail hərbçisinin və ya casusunun olmasından söhbət gedə bilməz. İran isə məhz Azərbaycanın müharibədə qalib gəlməsi və ərazilərini azad etməsi səbəbindən kənarda qaldı.

***- Bəs İran niyə şimaldan gələn sionizm təhlükəsindən danışır?***

- Tehran sionizm haqqında hay-küy salanda bu həm daxili məsələdir, həm də ərəb-İslam cəbhəsində bir oyundur. Təl-Əviv müdafiə sahəsində Bakı ilə çox sıx əməkdaşlıq edir və bu Tehranı qıcıqlandırır. Bundan əlavə, İsrail artıq ərəb ölkələri ilə əməkdaşlıq edir, ərəb ölkələri arasında İsrailin geosiyasi zonası formalaşır. Söhbət ”Avraam sazişi”ndən gedir. Tehran İsrailin yalnız Yaxın Şərqdə deyil, həm də Qafqaz və Mərkəzi Asiya da daxil olmaqla şimal və şərqdə dost və müttəfiq əlaqələrini formalaşdıracağından qorxur. İran İslam Respublikasının buna qarşı çıxacaq heç bir şeyi yoxdur. Bundan əlavə, İran qorxur ki, İsrail sayəsində ABŞ-ın Azərbaycandakı rolu arta bilər.

Amma ən vacib məqam - logistikadır, Azərbaycanın əsas hissəsindən Naxçıvana qədər olan Zəngəzur dəhlizidir. İran həqiqətən də onun açılmasını istəmir, Ermənistan-İran sərhədinin bağlanmasından qorxur. O zaman İran qazanc kanallarını, o cümlədən qanunsuz və ”boz” olanları itirəcək. İranın vəzifəsi Bakını Zəngəzur dəhlizindən imtina etməyə ”inandırmaq” idi. Tehran Rusiyanı öz tərəfinə çəkmək istəyir, lakin Moskva artıq ona dəstək verməkdən imtina edib. Beləliklə, İran va-bank oynadı və belə görünür ki, bu uğursuz oldu. Amma İrandan bəzi təxribatlar davam edəcək.

# Qiymət artımı prosesində sosial ədalət prinsipi



**Tarif Şurasının qərarı əhaliyə, ələlxüsus da aztəminatlı əhali kateqoriyası üçün ciddi təsir etməyəcək**





Bu gün Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etməklə yanaşı, həmçinin 30 il düşmən əsarətində olan torpaqlarımız qalib liderimizin "Dəmir yumruq" siyasəti və Güclü Ordumuzun igid əsgər və zabitlərinin rəşadətilə işğaldan azad etdiyi ərazilərdə də yeni infrastruktur layihələri həyata keçirir və burada da işıq, qaz və digər təchizat gündəmdə olan ən vacib məsələlərdəndir. Eyni zamanda, bu gün işığa, qaza tələbat daha da artıb və bu tələbatın olması xərcləri daha da artırır, dövlət, aidiyatı qurumlar bu sahələrə daha çox vəsait xərcləməli olur. Məhz bu baxımdan da Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının oktyabrın 16-da keçirilən növbəti iclasında təbii qazın və elektrik enerjisi tariflərinə baxılıb, müvafiq qərarlar qəbul edilib. Tarif (Qiymət) Şurasının qərarına görə, illik 1200 kubmetrə qədər təbii qazın hər kubmetrinin qiyməti əhali üçün 12 qəpikdən hesablanacaq. İndiyə kimi bu, 10 qəpik idi.

Tarif Şurasının şənbə günü açıqladığı qərara əsasən, əhali üçün təbii qazın 1200 kub metrdən sonrakı həcmi iyul ayında qəbul edilən tarifə uyğun qalacaq. Yəni, əhali illik 1200 kubmetrlik normanı keçərsə, 2500 kubmetrin 1 kub metri üçün 20 qəpik, bu limiti də aşarsa, sonrakı hər kubmetr üçün 25 qəpik ödəyəcək.

O zaman belə bir sual meydana gəlir: Təbii qazın yeni tarifləri nə vaxtdan və necə hesablanacaq? Qeyd olunub ki, yeni tariflər barədə qərar noyabrın 1-dən qüvvəyə minir. Tarif Şurasının şənbə günü açıqladığı qərara əsasən təbii qazın bir kubmetri sənaye və kənd təsərrüfatı sektoru üçün də artıb. Elektrik enerjisinə gəlincə isə əhali üçün tarif diferensiasiyası dəyişib. İndiyədək elektrik enerjisi üçün iki ödəniş həddi olub - aylıq 300 kVts-dək (7 qəpik) və 300 kVts-dan çox (11 qəpik).

## Ruslan Əliyev: "Tarif Şurasının qərarına əsasən təbii qaz üzrə qiymətlərin tətbiqinə noyabrın 1-dən başlanacaq"

Sözügedən məsələ ilə bağlı "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev deyib ki, oktyabrda isə qiymətlər əvvəlki tariflə hesablanacaq: "Tarif Şurasının qərarına əsasən təbii qaz üzrə qiymətlərin tətbiqinə noyabrın 1-dən başlanacaq. Oktyabrda isə qiymətlər əvvəlki tariflə hesablanacaq. Belə ki, indiki tarifə əsasən qazın 1200 kubmetrədək 1 kubmetrinin qiyməti 10 qəpik, 1200-2500 kubmetr arasında 20 qəpik, 2500 kubmetrdən yuxarı 25 qəpik hesablanır".

Bildirib ki, yeni tarifdə əsasən əhali abonentləri üzrə qazın 1200 kubmetrə qədər 1 kubmetrinin qiyməti 10 qəpikdən 12 qəpiyə qaldırılıb. Digər tariflər üzrə əhali abonentlərində dəyişiklik olmayıb: «Sənaye və kənd təsərrüfatı üzrə qazın bir kubmetri 20 qəpik idisə, yeni tariflə bu, 22 qəpik oldu. Digər müəssisələr üzrə isə tarifdə dəyişiklik olmayıb. Qazanxanalar üzrə tarifdə də dəyişiklik edilib, qazın 1 kubmetrinin qiyməti 13 qəpikdən 16,5 qəpiyə qalxıb. Qeyd edim ki, qazın topdan satış qiyməti də dəyişib. Əvvəllər "Azəriqaz" olaraq qazın topdan satışını "Azərkontrakt" şirkətindən 110 manata alırdıq. Yeni tarifdən sonra bu məbləğ 118 manat olub".

R.Əliyev əlavə edib ki, tariflərin tənzimlənməsində bir sıra səbəblər var. Bunlara dünya bazarında bir çox məhsulların, o cümlədən qaz təsərrüfatında istifadə olunan avadanlıqların qiymətindəki artımı misal göstərmək olar. Bu artım ümumi qazın topdan satış qiymətinə təsir edir. Bu da qazın pərakəndə satış qiymətində əksini tapır. Həmçinin, Tarif Şurasının yeni qərarında üç kateqoriya yaradılır: 200 kVts-dək olan abonentlər üçün 8 qəpik/kVts, 200 kVts - 300 kVts arası 9 qəpik/kVts, 300 kVts-dan yuxarı isə 13 qəpik/kVts.

## Vüqar Nəbibəyli: "Tarif tənzimlənməsi Azərbaycanda alternativ enerji istehsalına əlverişli şərait yaradacaq"

"Azərişıq" ASC-nin Enerji Satışı Departamentinin direktor müavini Vüqar Nəbibəyli bildirib ki, qeyri-əhali sektorunda da topdan satış qiymətinin artması nəticəsində ölkədə tarif tənzimlənməsi həyata keçirilib: "Pandemiyaya görə tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması ilə sənaye və iaşə müəssisələrinin fəaliyyətini bərpa etməsi iqtisadi aktivliyin sürətli canlanmasına səbəb olub. Bunun nəticəsində elektrik enerjisinə tələbat artıb. Odur ki, qeyri-əhali sektorunda da topdan satış qiymətinin artması nəticəsində ölkədə tarif tənzimlənməsi həyata keçirilib».

O bildirib ki, tariflərin dəyişdirilməsi ilə qaz və elektrik enerjisi istehsalı və təchizatı ilə məşğul olan təsərrüfat subyektlərinin dövlət büdcəsindən asılılığının tədricən azalması nəzərdə tutulub. Bununla da büdcə vəsaiti sosialyönümlü tədbirlərə yönləndiriləcək. Digər tərəfdən, tarif tənzimlənməsi Azərbaycanda alternativ enerji istehsalına əlverişli şərait yaradacaq. Bu sektorun inkişafı təbii qaz sərfiyyatının, qaz əsaslı enerji istehlakının azalmasına səbəb olar, iqtisadiyyatda yeni xidmət sahələri inkişaf etdikcə, daha da ucuzlaşa biləcək alternativ mənbələr yarana bilər.

"Azərenerji" ASC-yə verilən təbii qazın tariflərinin artırılması ilə əlaqədar elektrik enerjisi üçün topdan və pərakəndə tariflərin tənzimlənməsi zərurəti yaranıb. Elektrik enerjisinin topdan satışının tarifinin artırılması nəticəsində "Azərişıq" üzrə yaranan əlavə xərclər bütün istehlakçılar üzrə paylanıb. Yəni əhali, sənaye, nəqliyyat, kənd təsərrüfatı, ticarət və xidmət üzrə bölüşdürülüb. Əvvəlki tarif əhali üçün güzəştli idi, yəni 300 kilovat/saata qədər 7 qəpik, 300 kilovat/saatdan yuxarı isə 11 qəpik təşkil edirdi. Diferensial tarif sosial cəhətdən aztəminatlı ailələr üçün güzəştli tarif siyasətini hazırda da qoruyub saxlamış olur. Belə ki, istehlak səbətində bir nəfərin aylıq istehlakı 50 kilovat/saatdırsa, orta statistik ailə tərkibinin sayının 4 nəfər olduğu nəzərə alınanda güzəştli tariflər aylıq istehlakın 200 kilovat/saatına tətbiq ediləcək. Yəni, 200 kilovat/saata qədər yenə də güzəşt tətbiq olunur, 7 qəpikdən 8 qəpiyə qalxır, 200 kilovat/saatla 300 kilovat/saat arasında istifadə edən abonentlərin tarif qiyməti 9 qəpikdir, 300 kilovat/saatdan çox istifadə edən abonentlərin isə tarif qiyməti 1 kilovat/saat üçün 13 qəpik müəyyənləşib. Ayrıca qeyri-əhali abonentləri iki kateqoriyaya ayrılıb: ticarət, xidmət və digər. Ticarət və xidmət abonentlərinin tarifi 9 qəpikdən 11 qəpiyə, digər bütün qeyri-əhali abonentlərin tarifi isə bir qəpik artırılaraq 9 qəpikdən 10 qəpiyə qalxıb".

V.Nəbibəyli qeyd edib ki, elektrik enerjisi üzrə mövcud tariflər 2016-cı il dekabrın 1-dən tətbiq olunub. Sektorda aparılan infrastruktur işlərinin genişləndirilməsi, əhalinin və abonentlərin keyfiyyətli, fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi zərurəti, habelə enerjinin istehsalı üçün istifadə edilən təbii qazın qiymətlərində mövcud dəyişiklik nəticəsində yaranan əlavə xərcləri qarşılamaq məqsədilə enerjinin tarif tənzimlənməsi qaçınılmaz idi. Azərbaycanın istilik elektrik stansiyalarında elektrik enerjisi istehlakı üçün istifadə olunan xammalın 50 faizdən çoxunu təbii qaz təşkil edir. Təbii qazın qiymətinin artmağı elektrik enerjisi üçün topdan satış qiymətinin də artırılmasına zərurət yaratdı. "Azərenerji" ASC-dən alınan topdan satış elektrik enerjisinin qiyməti 5,7 qəpikdən 6,6 qəpiyə artırılaraq belə bir müəyyənləşmə aparıldı.

## Enerji böhranı: Avropa və Asiya bazarları arasındakı rəqabəti kəskin artırıb

Tarif Şurası təbii qaz qiymətlərinin sürətli artımının dünyada, o cümlədən Avropada elektrik enerjisi qiymətlərinin kəskin qalxmasına təkan verilməkdədir. Belə ki, COVİD-19 pandemiyasının tədricən səngiməsi, dünya iqtisadiyyatının canlanması və sənaye sahələrində istehsalın bərpa olunması fonunda 2021-ci ildən başlayaraq qazın qiyməti artmağa başlayıb. İlin əvvəlində 1.000 kub metri 335 dollar olan təbii qaz iyul ayında 500 dollara, avqustda 600 dollara yaxın olub. Sentyabrda qiymət artımı davam edib, birjalarda 1.000 kubmetri 700 dollar olan qazın qiyməti oktyabr ayına birjada (İCE) 1200-1400 dolları aralığında təklif olunub. Beynəlxalq Enerji Agentliyi qazın yüksək qiymətlərinin 2022-ci ilin birinci rübündə də davam edəcəyini proqnozlaşdırır. İqtisadçıların sözlərinə görə, qış fəslinin yaxınlaşdığı ərəfədə Rusiyanın "Qazprom" şirkətinin qaz təchizatını azaldacağına dair açıqlaması birjalarda qiymət artımına səbəb olub. 2021-ci ilin qalan aylarında Avropaya qaz təchizatında 20-23% azalma gözlənilir.

Enerji böhranı Avropa və Asiya bazarları arasındakı rəqabəti kəskin artırıb. Çin, Yaponiya, Koreya və Tayvan kimi sürətlə böyüyən iqtisadiyyatlar Avropanın ənənəvi mayeləşdirilmiş təbii qaz təchizatçıları üçün daha cəlbedici bazarlara çevrilib. Bu gün İtaliyada elektrik enerjisi və təbii qazın qiyməti artırılır. Buna səbəb kimi elektrik enerjisi istehsalının maya dəyərinin artması göstərilir.

İtaliyanın Ətraf Mühit və Enerji Şəbəkələri Tənzimləmə Təşkilatının məlumatına görə, oktyabrın 1-dən etibarən ev təsərrüfatlarının istifadə etdiyi elektrik enerjisinin qiyməti 29,8 faiz, təbii qazın qiyməti isə 14,4 faiz artırılacaq. Bildirilib ki, hökumətin təcili müdaxiləsi nəticəsində artım nisbətinin daha yüksək olmasının qarşısı alınıb. Bununla da 29 milyon abonent, eləcə də 6 milyon kiçik və orta biznes subyekti (KOB) bu qiymət artımlarından daha az təsir görəcək.

Göründüyü kimi, bütün deyilənlər onu göstərir ki, təbii qazın hasilat və istehlakçıya çatdırılma xərci satış qiymətlərini üstələyir. Bu isə, bu sahənin dövlət tərəfindən subsidiyalaşdırılmasına və dövlət büdcəsindən asılılığın artmasına səbəb olur. Azərbaycan işğaldan azad etdiyi ərazilərdə də yeni infrastruktur layihələri həyata keçirir və burada da işıq, qaz və digər təchizat gündəmdə olan məsələlərdən biridir.

Lakin onu da vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti əhalinin müəyyən təbəqəsinin ehtiyaclarının və xərclərinin ödənilməsi ilə bağlı imzaladığı sərəncama əsasən əhalinin imkansız təbəqəsinin sosial rifahı daha da yaxşılaşdırılsı vurğulanılır. Bu isə həmin vətəndaşlarımızın ehtiyaclarının ödənilməsinə, sosial rifahının yaxşılaşdırılmasına ciddi təsir göstərəcək.

Ancaq bu gün sosial şəbəkədə hər hansı aksiyaya, mitinq keçirilməsi isə, xalq tərəfindən də qəbul edilmir. Çünki xalq öz dövlətinə və dövlətin apardığı uğurlu siyasətinə inanır. Çünki Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Və bu gün hay-küy salanlar bilməlidirlər ki, əhalinin mənafeyinə toxunacaq heç bir qərar qəbul edilməyib.

***RƏFİQƏ HÜSEYNOVA***

# Oleq Starikov: "Azərbaycan Kremlin vasitəsi ilə Ermənistana yumşaq güc tətbiq etməlidir"

**Hərbi ekspert: "Regionda həlledici səsə sahib olan 3 ölkə - Rusiya, Türkiyə və İran arasında müdaxilə etməmək barədə razılıq əldə edildikdən sonra Azərbaycan 44 günlük müharibədə qeyd-şərtsiz qələbə qazandı"**

Hərbi ekspert, Ukrayna Təhlükəsizlik Xidmətinin istefada olan polkovniki Oleq Starikov "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda yaranmış vəziyyət və gedən proseslər haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

*- Sizcə, ATƏT-in Minsk Qrupunun Ermənistan-Azərbaycan münaqişəsini həll etmək cəhdləri niyə uğursuzluqla nəticələndi?*

- Bunu deyəcəm: müharibə, Karl von Klauzevitsin dediyi kimi, siyasətin davamıdır, ancaq başqa vasitələrlə. ATƏT-in Minsk Qrupunun bütün üzvlərinin bu münaqişənin siyasi yollarla həll edilməsində maraqlı olmadığını nəzərə alaraq, bu məsələni uzatmağı üstün tutdular. Hər bir ölkənin öz maraqları var idi, buna görə də 30 ildən çox davam edən Ermənistan-Azərbaycan münaqişəsi heç bir şəkildə bitmədi. Bölgədə həlledici səsə sahib olan 3 ölkə- Rusiya, Türkiyə və İran arasında müdaxilə etməmək barədə razılıq əldə edildikdən sonra Azərbaycan 44 günlük müharibədə qeyd-şərtsiz qələbə qazandı.




Bütün müharibələr həm siyasətçilərlə başlayır, həm də onlarla sona çatır, orduisə , onlara verilən vəzifələri yerinə yetirir, yəni ən yüksək hərbi-siyasi rəhbərliyin əmrlərini yerinə yetirir. Azərbaycan ordusu bu vəzifəyə daha yaxşı hazırlaşmışdı. Və bu, Prezident İlham Əliyevin böyük xidmətidir. Qarabağı qaytaran İlham Əliyev Azərbaycan tarixinə böyük dövlət xadimi kimi düşdü.

Amma Ermənistan ordusu əslində müharibəyə hazır deyildi. Gözümüzün qarşısındakı nəticə, Azərbaycan ərazilərinin azad edilməsi və yavaş templə də olsa, həyata keçirilən üçtərəfli bir bəyanatın imzalanmasıdır.

*- Amma Ermənistan üçtərəfli bəyanatın bəzi müddəalarını yerinə yetirir ...*

- Əlbəttə, başa düşürəm ki, Azərbaycan tərəfi bu bəyanatın müddəalarını daha sürətli həyata keçirmək istəyir. Hərbi toqquşmaların bitməsinə baxmayaraq, siyasi həll tədricən baş tutacaq, Azərbaycanla Ermənistan arasındakı sərhədlərin demarkasiyası və delimitasiyası lazımdır.

Müharibədə uduzduqdan sonra heç bir lider hakimiyyətdə qalmır. Amma baş nazir Paşinyan müharibədə bu qədər ağır məğlubiyyətə baxmayaraq hakimiyyəti saxlaya bildi. Sual budur ki, niyə? Hər şey çox sadədir- çünki Rusiya Federasiyası və İran üçün onun hakimiyyətdə qalması faydalı idi. Siyasi cəhətdən Moskva, Tehran və Ankara onun hakimiyyətdə qalmasına icazə verdi. Bu münaqişənin siyasi yolla həllinin tez bir həlli yoxdur. Üçtərəfli bəyanatda nəzərdə tutulan məqamlar yavaş-yavaş həyata keçiriləcək.

İndi isə Zəngəzur dəhlizinin açılışı ilə əlaqədar fikirlərimi deyim. Üçtərəfli bəyanatın bu bəndinin icrası başlayar-başlamaz dərhal Ermənistan tərəfindən və İrandan bir çox suallar ortaya çıxacaq, çünki müharibədən əvvəlki vəziyyət dəyişəcək və hər şey Azərbaycanın maraqları istiqamətində inkişaf edəcək.

*- Hərbi ekspert və bölgəmizi yaxşı bilən bir adam olaraq müharibənin qaçılmaz olduğunu anlayırdınızmı?*

- Sentyabrın 27-də hərbi toqquşmalar başlayanda, bunları şərh etmək şansım oldu. Proqnozlarımda və təhlilimdə səhv etdiyim yeganə məqam vaxt idi. Hərbi qarşıdurmanın bir həftə içində bitəcəyinə əmin idim, bəzi məqamları daha ətraflı bilmirdim. Şərq incə bir məsələdir, belə deyirlər.

Unutmayın ki, erməni diasporu gücünə və yaxşı işləyən maliyyələşməsinə görə dünyada yəhudilərdən sonra 2-ci böyük gücə malikdir. Soruşursunuz ki, erməni tərəfi niyə uduzdu? Azərbaycan Prezidenti İlham Əliyev bu məsələni həll edən Azərbaycan hərbi elitasını yaratdı.

Azərbaycandan fərqli olaraq, ermənilər hətta böyük pulların və resursların nəzərə alaraq hara gəldi qaçdılar, nəticə göz qabağındadır - Ermənistan tərəfi uduzdu. Bu günə qədər erməni diasporasında ermənilərin baş verənləri və bundan sonra nə etməli olduqlarını anlamağa çalışdıqları çətin mübahisələr davam edir.

Hər şey tədricən həyata keçirildiyindən Azərbaycan üçtərəfli bəyanatı həyata keçirməyə tələsməməlidir. Rusiya sülhməramlı kontingenti, Türkiyə nümayəndələri Qarabağdadır- vəziyyətə tam nəzarət var, hər kəs bir-birinin nəzarətindədir - bu, etibarlı təminat deməkdir.

Azərbaycan təbii ki, buna çoxdan hazırlaşır. İndi Ermənistana Kreml vasitəsilə yumşaq güc tətbiq etməyə dəyər ki, bəyanatdakı bütün razılaşmalar yerinə yetirilsin və münaqişə tamamilə bitsin. Şükürlər olsun ki, İlham Əliyev peşəkar diplomatdır, bunu onun təhsili də sübut edir.

*- Lakin Ermənistan uduzsa da, qisas almaq arzusundadır. Azərbaycanla Ermənistan arasında yeni hərbi qarşıdurma mümkündürmü?*

- İntiqam? İstisna edilir. İntiqam almaq üçün müharibəyə diqqətlə hazırlaşmaq lazımdır. Əvvəlcə bunu açıq elan etməli və geniş miqyaslı bir müharibə ilə rəqib tərəfə keçilməli, döyüşmək üçün dünyanın hər yerindən olan erməniləri Ermənistana çağırmalıdırlar. Erməni diasporasının milli xarakteri və işgüzar maraqları nəzərə alınsa, bu baş verməyəcək. Ermənistan tərəfi üçtərəfli bəyannaməni imzaladı və Rusiya (eləcə də Türkiyə) onun pozulmasına icazə verməyəcək.

*- Sizcə, Azərbaycanın hərbi təcrübəsi Ukrayna üçün faydalı ola bilərmi?*

- Bəli. Şübhəsiz. 44 günlük müharibədə Azərbaycanın hərbi təcrübəsinin lehinə bir neçə nəticə çıxaracağam. Əsas cəhət yuxarıda qeyd etdiyim kimi milli siyasi elitanı yaradan liderin siyasi iradəsidir. İlham Əliyevin etdikləri böyük hörmətə layiqdir. Onun adı artıq dünya tarixinə qızıl hərflərlə yazılıb.

Azərbaycan ordusu kimi ordu qurmaq üçün onun inşasına ÜDM-in müəyyən faizini ayırmaq lazımdır ki, bunu da Azərbaycan edirdi.

Bundan əlavə, bütün əhalinin hərbi-vətənpərvərlik tərbiyəsi ilə məşğul olmaq və zabitlərdən generallara qədər hərbi elitanı hazırlamaq lazımdır. Azərbaycan ordusunun hərbi qulluqçuları təkcə daxili hərbi universitetlərdə təhsil almırdı. Azərbaycan hərbçiləri NATO-nun təlim mərkəzlərinə, Türkiyə və Pakistandakı hərbi universitetlərə də göndərilirdi.

Bundan əlavə, Azərbaycan ən müasir və güclü silah növlərini almağa başladı. Bakı baxışlarını PUA-lara çevirdi. Buna görə də, müharibə zamanı ABŞ-ın İraqdakı "Səhrada Fırtına" əməliyyatında istifadə etdiyi, belə desək, şəbəkə mərkəzli müharibənin elementlərindən istifadə edildi. Rəqəmsal texnologiyalar tətbiq edildi - xüsusən də, dronların idarə edilməsində. Azərbaycan ordusu ən yaxşı silahlarla təchiz edilmiş və son döyüş üsullarından istifadə etmişdir. PUA-lar qurudan hücum təyyarəsi olaraq istifadə edildi. Erməni tərəfi buna tamamilə hazır deyildi.

*Tərcümə - Elçin Bayramlı*

---



# İran-İsrail savaşı: baş verəcək, yoxsa..?

## Marianna Belenko: "Müharibəyə keçid etmək üçün qaynar faza artıq mövcuddur"

ŞƏRH

**Son vaxtlar İran-İsrail münasibətlərinin yenidən gərginləşməsi prosesi müşahidə olunmaqdadır. Hətta zaman-zaman iki ölkənin hərbi-siyasi dairələri arasındakı kəskin ritorikalar xarakterində səslənən qarşılıqlı bəyanatların açıq müharibəyə doğru inkişaf etdiyi barədə də mülahizələr irəli sürülməkdədir. İran-İsrail qarşıdurması daha gərgin fazaya keçə bilərmi? Yaxud, ölkələr arasında savaşın baş verməsi ehtimalı nə qədər mümkündür?**

"SƏS" qəzeti xəbər verir ki, bu barədə "Kommersant" qəzetinin siyasi şərhçisi Marianna Belenko maraqlı detalları açıqlayıb. Onun sözlərinə görə, silahlı qarşıdurmaya, müharibəyə keçid etmək üçün qaynar faza artıq mövcuddur. Belə ki, İsrail İranın və onun müttəfiqlik etdiyi Suriyanın obyektlərinə zərbələr endirir- tankerlər müharbəsi, İran və ya İsrail gəmiləri üzərində baş verən insidentlər və s. nəzərə alınrasa, situasiya kifayət qədər açıq görünür. Siyasi şərhçi hesab edir ki, savaşın baş verəcəyi halda regionda böyük silkələnmələr yaşana bilər, çünki İsrail İranda müəyyən diversiyalar həyata keçirir. Lakin bu, gizli əməliyyat kimi görünür. "Biz yüz faizlik zəmanətlə deyə bilmədik ki, bunları məhz İsrail edir. O, (İsrail) heç vaxt üzərinə belə bir cavabdehliyi götürə bilməz. Lakin açıq hərbi zərbənin endirilməsi planı gizli olsa belə onsuz da masa üzərindədir", "Kommersantın" analitiki bildirib.

Belenko İrandakı hakimiyyətin devrilməsi variantında da toxunaraq qeyd edib ki, bunun mümkün olması ehtimalı inandırıcı görünmür. Xüsusilə bu, İran-Amerika münasibətlərinin müstəvisinə aiddir, çünki ABŞ-ın bölgədəki əvvəlki səhvlərini nəzərə alaraq heç kim bununla razılaşmayacaq.

"Hər kəa anlayır ki, bu çox çətindir, amma İsrail "B" variantını istisna etmir, onu ABŞ-la müzakirə edir, belə ki, orada söhbət nəinki hərbi təhlükələrdən, həm də iqtisadi və siyasi təzyiqlərdən gedir", deyən Belenko bu xüsusda İsrailin ərəb ölkələri ilə yaxınlaşması faktoruna da toxunub və xatırladıb ki, ərəb ölkələri ilə münasibətlərin qurulması fərqlidir. 90-cı illərdə sülh prosesinə başlanılarkən Misir də daxil olmaqla bir sıra ərəb ölkələri ilə sülh prosesinə start verildi və bu gün İsrailin misirlə əlaqələri dostluq səviyyəsindədir.

"Başqa məsələ isə 2000-ci ildəki ikinci intifada (müqavimət hərəkatı) zamanında münasibətlərin pozulmasıdır, haradasa iqtisadi təmasların dayandırılması qərarları da verildi. Lakin buna baxmayaraq Körfəz ölkələri ilə qeyri-rəsmi, səssiz təmaslar olurdu və İsrailin onlarla nəyi isə bölüşdürməsinə də ehtiyacı yoxdur, misal üçün BƏƏ və Bəhreynlə. Onlar arasında problem yoxdur, ona görə ki, orada ABŞ da iştirak edir və məqsəd potensial anti-İran blokunun qurulmasıdır. İrailin və ərəb ölkələrinin də əlaqələr qurmaq istəkləri eynilik təşkil edir: təhlükəsilik sferasında əməkdaşlıq, iqtisadi təmaslar, yəni bütün bunlar ani deyil", analitik bildirib.

İranın qısa müddətdə nüvə silahına sahib olması, buna qarşı dünya mərkəzlərinin manеələr yaratması məsələsinə toxunan Belenko da etiraf edib ki, İran nüvə silahının yaradılması fazasına yaxındır və bu ətrafda danışıqlar aparılmaqdadır: "Aİ Rusiya ilə İranı inandırmağa çalışır ki, ABŞ-la yenidən danışıqlar masasına otursun. Lakin tərəflərin bu situasiyadan çıxmaları üçün qeyri-müəyyən fikir ayrılıqları var. Hələlik, onlar danışmağa hazırdırlar və heç kim başqa variantlara müraciət etmək istəmir. Situasiyanın sonra necə inkişaf edəcəyini görəcəyik".

Suriya məsələsində Rusiya ilə Türkiyənin yanaşmalarında hansı vahidliyin olması, eyni zamanda, Soçidə Putin-Ərdoğan görüşünün Suriyadakı daxili proseslərə necə təsir edəcəyi barədə də danışan "Kommersant"ın analitiki bildirib ki, Rusiya və Türkiyə Suriyadakı siyasi proseslərin əvvəl olduğu kimi davam etməsinə razıdırlar və tərəflər hərəsi öz cinahından bu prosesə yanaşma edirlər.

"Lakin onların Suriyanın siyasi gələcəyi ilə bağlı baxışları fərqlidir: Türkiyə gələcəyi Bəşər Əsədlə görmür, Rusiya isə onu legitim prezident kimi görür. Lakin Putin və Ərdoğan Soçi görüşündə hərbi məqamları müzakirə ediblər. Onların hansı nəticəyə gəlmələrini kimsə bilmir, razılaşmalar haqqında heç bir dəqiq məlumatlar yoxdur, ona görə də hər iki tərəf bu günə qədər nə ediblərsə, onu da davam etdirəcəklər", deyə analitik bildirib.

***Rövşən RƏSULOV***

# Sənət xadimlərinə dövlət qayğısı davamlıdır

*Dövlət başçısının Sərəncamı ilə mədəniyyət xadimləri fəxri adlara layiq görülüb*



Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdən biri olaraq daim diqqətdədir. Mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Bu sahələrin inkişafını stimullaşdırmaq digər sahələr kimi, dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Yaradıcılığın dəstəklənməsi və mədəni sahələrin dirçəldilməsi kimi prioritet istiqamətlər müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir. Bu gün ölkəmizdə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə sənət məbədləri təmir və bərpa etdirilib, onların dünya səhnəsinə uyğun olaraq fəaliyyət göstərmələrinə hər cür şərait yaradılıb. Dövlət başçısının məlum sərəncamları ilə teatr və konsert müəssisələrində çalışan sənətkarların, eləcə də ifaçıların sosial müdafiəsinin gücləndirilməsinə ayrılan diqqət onların maddi rifahının yüksəlməsinə səbəb olub. Təbii ki, bu yaradıcı şəxslərin fəaliyyətinin üzə çıxarılması üçün yaradılan şəraitlə sıx bağlıdır. Yaradıcı simalar, mədəniyyət və incəsənətimizin görkəmli nümayəndələrinə fəxri ad və mükafatlar verilib, mənzillərlə təmin olunublar və bu davamlı xarakter alıb. Dövlət qayğısı ilə əhatə olunan insanların potesialının üzə çıxması ilə yanaşı, onların öz üzərilərində daha məsuliyyətli olmaq kimi vacib tələbi də qoymuş olur. Müasir Azərbaycan mədəniyyətin dünya inteqrasiya olunduğu bir zamanda mükəmməl sənətin, ifanın təqdimi istedad və zəhmət tələb edir. Əlbəttə ki, mədəniyyətimizi təbliğ edənləri böyük məsuliyyət hissi tərk etməməlidir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında imzaladığı Sərəncamı bu sahənin yaradıcı insanlarına olan diqqətdən qaynaqlanır. Belə ki, Sərəncama əsasən, Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə, bir sıra şəxslərə - "Xalq rəssamı", "Əməkdar artist", "Əməkdar rəssam", "Əməkdar mədəniyyət işçisi" kimi Azərbaycan Respublikasının fəxri adları vrilib. Bu əlbəttə ki, onların mədəniyyətin müxtlif sahələri üzrə olan fəaliyyətlərinə olan diqqətdir. Azərbaycan mədəniyyətini layiqincə təmsil etmək, onu bu diyardan başqa bir məkanda təbliğ etmək sənət nümayəndələrinin ən ümdə vəzifəsidir.

Dövlət başçısının həyata keçirdiyi mədəniyyət siyasətinin uğurlu nəticələri və perspektivləri artıq göz qabağındadır. Azərbaycan Respublikasının müasir dövrdə yürütdüyü mədəniyyət siyasətindən yaranan imkanlar və milli-mənəvi dəyərlərimizin mühafizəsinə olan qayğı mədəniyyət işçilərinə daha böyük uğurlara imza atmağı, daha səylə və səmərəli olaraq yaradıcılıq imkanlarına artırmağa bir stimuldur. Bu, sənət xadimlərini uğura kökləyir, böyük zəfər qazanmış Azərbaycanı musiqinin dilində, tabloların rəngində daha möhtəşəm bir şəkildə təbliği istiqamətində məsuliyyətli olmağa sövq edir.

**Zümrüd BAYRAMOVA**



# "Azərbaycanı qane edən sülh sazişinin imzalanması mümkün olacaq"

"MDB dövlət başçılarının sammitində V.Putin Rusiyanın aktiv iştirakı ilə Qarabağda baş verən münaqişəni dayandırmağın mümkün olduğunu xüsusi vurğuladı və bəyan etdi ki, "pis sülh uğurlu müharibədən daha yaxşıdır!". Onun bu bəyanatı ilk növbədə Ermənistanda revanş ümidi ilə yaşayan Koçaryan-Sarksyan tərəfdarlarına ünvanlanmışdı və onlara açıq mətnlə deyilirdi ki, "Azərbaycan torpaqlarını yenidən işğal etmək "xəyallarından" nə qədər tez imtina etsəniz, bir o qədər sizinçün yaxşı olacaq! Revanş planlarınızda Rusiyanın sizin yanınızda olacağına ümid etməyin və 44 günlük hərbi əməliyyatlar zamanı düşdüyünüz vəziyyəti unutmamağa çalışın!". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, Rusiya prezidentinin verdiyi bəyanatın əsas hədəfi şübhəsiz ki, N.Paşinyan hökuməti idi: "İki gün əvvəl Moskvada üzbəüz görüşdə dediklərinin bir hissəsini bir daha təkrarlayan V.Putin əslində deyirdi ki, "erməni xalqını pis sülhə hazırla, ABŞ və Fransa rəsmilərinin verdiyi vədlərə uyub vəziyyəti daha da ağırlaşdırmağa çalışma!".

Rusiya liderinin bəyanatı məhz bu dövrdə-Minsk qrupu həmsədrlərinin fəallaşdığı və vasitəçilik təşəbbüsünü ələ keçirməyə çalışdığı günlərdə verməsi bir daha göstərdi ki, Moskva sülh sazişinin imzalanması istiqamətində aparılan danışıqlarda təşəbbüsün ABŞ və Fransanın əlinə keçməsinə imkan verməyəcək və qısa müddətdə bu prosesin yekunlaşması, Cənubi Qafqaz regionunda sülhün təmin olunması üçün əlindən gələni edəcəkdir. V.Putinin sözləri, eyni zamanda, danışıqları Minsk qrupunun vasitəçiliyi ilə aparmağa cəhd edən N.Paşinyana növbəti xəbərdardıq- bir il əvvəl başladığı "uğurlu müharibədə" başına gələnləri, düşdüyü rəzil vəziyyəti bir daha xatırlatmaq cəhdi idi. Bu mənada Rusiya prezidentinin bəyanatı Ermənistan cəmiyyətinin "unutqan" və hələ də "bəlkə də qaytardılar" ümidi ilə yaşayan hissəsini "sakitləşdirmək" cəhdi kimi də qiymətləndirilə bilər. Güman edirəm ki, həm Prezident İlham Əliyevin mütəmadi olaraq apardığı diplomatik iş, həm də Rusiya prezidentinin Ermənistan liderinə açıq və qapalı görüşlərdə verdiyi məsləhətlər öz bəhrəsini verəcək və yaxın zamanlarda Azərbaycanı qane edən sülh sazişinin imzalanması mümkün olacaq".

**GÜLYANƏ**

# Rus sülhməramlıları Qarabağa silahı hava yolu ilə atır

*Ukraynalı analitik: "Ermənistanın ərazisinə keçid almaqla yeni münaqişənin baş verəcəyini istisna etmirəm"*



44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif tribunalardan və dəfələrlə Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyasına, eləcə də sülh sazişinin imzalanmasına hazır olması ilə bağlı verdiyi çoxsaylı mesajlarına baxmayaraq, İrəvan müxtəlif bəhanələrlə, yeni yaxasını kənara çəkməklə 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatda əks edilən tələblərin realizəsinə mane olur. Ermənistanın baş naziri Nikol Paşinyan erməni diversantlarının geri qaytarılması müqabilində mina xəritələrinin Bakıya veriləcəyini deməklə yanaşı, həm də regionda əldə edilə biləcək sülhün əsaslı şəkildə təmin olunmasına ciddi şəkildə mane olur. Onun müxtəlif kürsülərdən səsləndirdiyi "sülhpərvər" ismarıcları da heç bir səmimiyyəti, həqiqəti əks etdirmir.

### Dəmir Yumruq yerindədir!

Üstəlik, Rusiya sülhməramlı kontingentinin nəzarəti altında olan Qarabağ ərazilərindəki separatçıların, erməni silahlı quldur dəstələrinin dinc dayanmamaları, təxribatlar törətmələri, onlara bu siqnalların İrəvandan verilməsi kimi faktları da incələyərsək, bu zaman Ermənistanın sülh sazişindən nə qədər uzaq dayanması marağını təsbit etmiş olarıq.

Təbii ki, biz burada bir daha Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə səfərləri zamanı demək olar ki, hər dəfə səsləndirdiyi qətiyyətli bəyanatlarını xatırlada bilərik - Dəmir Yumruq yerindədir!

Bu gün dünyanın bir sıra tanınmış politoloqları, siyasi analitikləri, eləcə də konfliktoloqları bəhs etdiyimiz mövzu ətrafında çoxsaylı, həmçinin maraqdoğurucu proqnozlarını verirlər. Bir çoxları artıq münaqişənin geridə qaldığını deyir, bəziləri isə yeni münaqişənin baş verməsi mümkünlüyü barədə mülahizələrini irəli sürürlər.

Bu xüsusda daha bir siyasi araşdırmaçı, Ukraynanın "Doktrina" Siyasi araşdırmalar mərkəzinin təhlükəsizlik departamentinin rəhbəri Qleb Parfyonovun caliber.az rusdilli informasiya analitik saytına verdiyi müsahibəsindəki fikirlərini oxucu auditoriyamızın diqqətinə çatdırırıq.

### Qleb Parfyonov: "Moskva Bakı ilə Ankaranın Şuşa bəyannaməsini imzalaması faktına neqativ baxır"

Ermənistanın sülh sazişinin imzalanması prosesini izatması və bu məsələdə İrəvana hansı güclərin təsir etməsi sualını cavablandıran Parfyonova görə, Ermənistan sülh yolu ilə tənzimlənməyə tərəf getmirsə, açıq şəkildə səhvə yol verir. O, digər tərəfdən bildirir ki, artıq erməni tərəfinin revanşa hazırlaşması dəfələrlə nəzərə çarpıb və öz məğlubiyyətlərindən doğan reflekslərə hakim ola bilməmək Ermənistana neqativ təsir göstərir. Bütövlükdə isə görünən budur ki, Ermənistan təkbaşına heç nəyi həll etmir.

Ukraynalı politoloq bu məsələdə Rusiyaya qarşı da ittiham irəli sürüb. SİTAT: "Əgər əsas oyunçulardan danışarsaq və münaqişənin ilk olaraq kimə sərf etdiyini deyərsək, burada Rusiyanı yada salmaq lazımdır. Axı ona bu münaqişəni əlində saxlamaq sərf edir, belə ki bu, onun Ermənistanda qalmasına və Türkiyəyə təsir etməsinə imkanlar yaradır.

Çox yəqin ki, Moskva Bakı ilə Ankaranın Şuşa bəyannaməsini imzalaması faktına neqativ baxır, belə ki, bəyannamə Türkiyənin Xəzər dənizinə çıxmasına imkan verir. Ona görə də son hadisələrdən sonra ilk növbədə Rusiya və eləcə də İran Azərbaycanla Türkiyənin regiondakı rollarının artmasını istəmirlər, onlar buna mane olmaq üçün hər şey edəcəklər. Məsələn, Tehran Zəngəzur dəhlizinə qarşı çıxış edir və sərhəddə əzələ nümayiş etdirir ki, bu da onun Bakı ilə Ankaradan qorunmasına hesablanıb".

### "Doktrina" Siyasi araşdırmalar mərkəzinin rəhbəri: "Bu, açıq şəkildə regionda sülhün əldə edilməsinə mane olur"

İrəvanın Bkıdan revanş alması cəhdlərinin nə qədər mümkün olub-olmamasına münasibətini açıqlayan ukraynalı siyasi analitik təəssüflə bildirib ki, revanş cəhdi mümkündür. SİTAT: "Belə ki, bunu xaricdən tələb edirlər. Özü də biz görürük ki, rus sülhməramlıları regionda neytrallığı qorumurlar və Qarabağda ermənilərə kömək edirlər, eləcə də hava yolu ilə onları silahla təmin edirlər. Bu, açıq şəkildə regionda sülhün əldə edilməsinə mane olur.

Və bunun hansı məqsədlər daşıdığı aydındır. Ona görə də mən Ermənistanın ərazisinə keçid almaqla yeni münaqişənin baş verəcəyini istisna etmirəm, məsələn Zəngəzura tərəf. Əgər onlar yaxşılıqla anlamırlarsa və aqressiya nümayiş etdirirlərsə, onda gec, ya da tez bütün baş verənlərə görə ağır cavab verməli olacaqlar".

### Parfyonov: "Türkiyə ilə Azərbaycan dəmir yollarının birləşdirilməsi həm də simvolik tərəfdən əhəmiyyət kəsb edir"

Zəngəzur dəhlizinin açılması prosesinin kimin xeyrinə olması və kimlərin buna qarşı çıxması məsələsinə gəlincə, Parfyonov hesab edir ki, Ermənistanla danışıqlarda əldə edilən dəhliz məsələsində əsasən qorxan tərəf İrandır. Belə ki, yekun sənəddə (sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması üzrə üçtərəfli razılaşma:11 yanvar 2021-ci il) Zəngəzur dəhlizi barədə xatırlanıb, lakin dəqiq şəkildə adı açıqlanmayıb. Erməni tərəfi də məhz bundan sui-istifadə edir. SİTAT: "Bötövlükdə isə Ermənistan bundan yalnız uda bilərdi, axı o Türkiyə ilə Azərbaycan arasında əlaverişli coğrafi şərtlərdə yerləşir. Və əgər qonşularına qarşı nifrəti, təkəbbürü olmasa idi mübafiq infrastruktur layihələrindən ən çox yararlanan da ilk Ermənistan olardı. Baxmayaraq ki, Türkiyə ilə Azərbaycan dəmir yollarının birləşdirilməsi həm də simvolik tərəfdən əhəmiyyət kəsb edir".

**Rövşən RƏSULOV**

# Siqaret çəkən xanımlara

## CƏMİYYƏTİN BAXIŞI NECƏDİR




Müasir dövrümüzdə bəşəriyyətin qarşısında duran ən ciddi problemlərdən biri də tütündür. Tütünün insan orqanizminə ziyanları haqqında nə qədər təbliğat aparılsa da təəssüflər, olsun ki, ondan istifadə edənlərin sayı getdikcə artmaqdadır. Hələ 1970-ci ildə Ümumdünya Səhiyyə Assambleyası ağ ciyər və ürək-damar xəstəliklərinin inkişafına, həmçinin bronxial xərçəng, xroniki bronxit və bir çox xəstəliklərə səbəb olan siqaret çəkmənin ciddiliyini dərk edərək dünyanın bütün səhiyyə orqanlarına müraciət etmiş, problemə qarşı lazımi tədbirlərin görülməsinin vacibliyini bildirmişdir. Həmin dövrdən başlayaraq dünyanın bir çox ölkəsində siqaretə qarşı təbliğat kampaniyaları başlamış və bu kampaniyalar bu gün də davam etdirilməkdədir. Lakin hələ də siqaretin istifadəsi hər il minlərlə can alır. Bu mövzuda SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:

**Şəhər sakini Aidə Bədəlova:** "Siqaret çəkən xanımlara münasibətim əlbəttə ki, yaxşı deyil. Sağlamlıq qalsın bir kənara, özüm də xanım olduğuma görə bir xanıma bunu yaraşdırmıram, yəni biz belə görüb götürmüşük".



**Şəhər sakini Şahmar Cavadov:** "Siqaretin istifadəsi fərqi yoxdur xanım, ya da kişi bu, sağlamlığa zərərlidir. Ancaq Azərbaycanın mentalitetinə gəldikdə isə, bu, xoş qarşılanmır. Yenə də hər kəsin öz seçimidir. İsifadə edənlər isə özlərinə zərər verirlər".



**Şəhər sakini Aidə Nəbiyeva:** "Fikrimcə, siqaretin baxış tərzinin fərqi yoxdur. Burada cinsiyyət ayrı-seçkiliyi etməyə də ehtiyac duymuram. Siqaret və bəzi zərərli vərdişlər bəşəriyyətin ən böyük bəlalarındandır. İstifadə edənlər isə bir gün çox peşman olacaqlar və onu anlayacaqlar ki, bunun sonu ölümdür. Gənclərə isə məsləhətim budur ki, belə zərərli vərdişlərə qurşanmaqla həyatlarını təhlükəyə atmasınlar".



**Şəhər sakini Ləman Abıyeva:** "Belə düşünürəm ki, bu, psixoloji vəziyyətdən asılıdır. Həyatında bəzi problemləri yaşayan insanlar çıxış yolunu siqaret çəkməkdə tapır. Xanımların isə istifadə etməsinə yaxşı münasibət göstərmirəm. Çünki xanımlar gələcəyin anasıdır və bu dünyaya gələn uşağın da həyatında mühüm rol oynayır. Bu səbəbdən də xanımlara məsləhət görürəm ki, siqaretdən istifadəni dayandırsınlar və gözəlliklərini qorusunlar".



**Şəhər sakini Elçin Qurbanov:** "Ümumiyyətlə, siqaret çəkən insanlara münasibətim normaldır, yəni xanım kişi ayrı-seçkiliyi etmirəm. Kişi siqaret çəkə bilər, ancaq qadın çəkə bilməz kimi bir düşüncəyə də pis baxıram. Bizim azərbaycanlılar ən çox mentalitetə uyğun hərəkət edirlər. Mən isə bu düşüncəyə sahib bir insan deyiləm. Çəkməmələri isə daha məsləhətlidir, amma hər halda öz qərarlarıdır, özləri necə seçim etmək istəsələr elə də edə bilərlər".



**Şəhər sakini İlahə Bağırova:** "Əlbəttə ki, yaxşı baxmıram və bir Azərbaycan xanımına bunu yaraşdırmıram. Ümumiyyətlə, mən yoldaşıma da siqaretdən istifadə etməyə icazə vermirəm, çünki bu, onun sağlamlığına çox zərərlidir. Həm sağlamlığımızı, həm pulumuzu və eyni zamanda, gözəlliyimizi də itiririk. Ən əsası da evdə uşaq varsa, o, bundan daha çox ziyan çəkir. Fikrimcə, uşaq siqaretdən istifadə edən ananın yanında qalıb hansı tərbiyəni götürəcək? Mən deyə bilmərəm ki, siqaret çəkən qadın əxlaqsızdır, amma buna normal da baxmıram".



**Şəhər sakini Əlibəy Ələkbərli:** "Siqaret çəkmənin zərərli olduğunu artıq hər kəs bilir. Xanımların siqaretdən istifadə etməsinə isə birmənalı olaraq pis yanaşıram. Bir kişinin tərbiyəsi, əxlaqı sadəcə bir ailəyə təsir edə bilər. Ancaq bir xanımın tərbiyəsi bütün cəmiyyətə təsir edir. Xanım böyük qüvvədir məsəli isə boş yerə deyilməyib. Təkcə ailəyə və uşağa yox, ümumiyyətlə, cəmiyyətə pis örnək olur. Nə də olsa biz müsəlman ölkəsidir və biz Azərbaycanda yaşayırıq. Hər halda ki, bu ölkənin adını qorumaq kişilərlə yanaşı, eyni zamanda, qadınların da üzərinə düşür".



**Şəhər sakini Asif Kərimzadə:** "Bu barədə onu deyə bilərəm ki, siqaretdən istifadənin xanımlara qadağası haqqında bir məlumat eşitməmişəm. Siqaret çəkən xanımlara münasibətim isə normaldır, hər kəs öz həyatında seçimləri özü edir və bu kimi seçimlər xanıma da verilib. Belə xanımlara da, seçimlərinə də sayğı duymalıyıq".



**Şəhər sakini Hüseyn Ələkbərov:** "Gündəlik həyatda çətinliklərlə qarşılaşan xanımlar kişilərdən fərqli olaraq daha çox stres keçirirlər və bu stresi aradan qaldırmaq üçün siqaret çəkməyi üstün tuturlar. Bu stres qadınları siqaretdən asılı edir və onu tərgitməkdə çətinlik törədir. Məncə bu, xanımlardan əlavə bütün insanlara zərbə vurur. Məlumdur ki, bütün xəstəliklərin başında isə siqaret dayanır. Siqaretdən istifadə edən xanımlara münasibətim isə normaldır. Ancaq öz ailəmdəki xanımların istifadə etməsinə təbii ki, icazə verərəm".

*Rüqəyya Orucova*

# Quldurlar məhv edilməlidir:
# Ukrayna və Rusiya ekspertlərinin fikirləri fərqlidir

**Məlum olduğu kimi, oktyabrın 14-də, təxminən saat 18:15 radələrində hələ də Qarabağda (Rusiya sülhməramlıları kontingentinin (RSK) nəzarət etdiyi ərazilərdə-R.R.) mövcud olan erməni quldur dəstələri tərəfindən snayper silahı ilə açılan atəş nəticəsində hərbi qulluqçumuz Həmzəyev Əfqan Bəhram oğlu şəhid olmuşdur.**

Regionda son hadisələrin təhlilini apararkən (erməni quldurlarının mülki avtomobil karvanımızı atəşə tutması, kəşfiyyat PUA-nın Füzuli rayonu ərazisinə göndərilməsi, həmçinin həbrçimizin xaincəsinə qətlə yetirilməsi) iki sual yaradır: nə baş verir və RSK nə işlə məşğuldur?

"SƏS" qəzeti xəbər verir ki, bu barədə Ukraynanın analitik mərkəzinin direktoru Aleksandr Oxrimenko və Rusiyanın millətlərarası münaqişələr üzrə eksperti, eləcə də Rusiyanın jurnalistlər ittifaqının üzvü Yevgeni Mixaylov rusdilli "Caliber" analitik informasiya mərkəzi ilə mövzuyla bağlı öz fikirlərini bölüşüblər.

### Ukraynalı ekspert: "Onlar nə qədər ki Qarabağdadırlar, təxribatlar və terror hadisələri daim mövcud olacaq"

A.Oxrimenkonun sözlərinə görə, Qarabağdakı gərginlik, əsasən, Rusiyanın maraqlarına uyğundur. Ukraynalı ekspert bilavasitə Kremli ittiham edir və Moskvanın bu kimi məsələlərdə dolayısı ilə erməni tərəfini müdafiə etdiyini bildirir.

"Kremldə daim Rusiya imperiyası barədə xəyallar qururlar. Ona görə də Qarabağdakı sülh faktoru Kremlin maraqları dairəsinə daxil deyil. Çünki bu zaman onlar öz ordularını (RMK-nı nəzərdə tutur) Azərbaycan ərazilərindən çıxarmalıdırlar. Bax, bunun üçün də Rusiya Cənubi Qafqazda müxtəlif növ terror aksiyaları həyata keçirən radikalları dəstəkləyirlər. Rusiya Qarabağda müharibənin davamını istəyir", deyə Oxrimenko hesab edir.

Ukraynalı ekspert Qarabağda sülhün bərqərar olması üçün RSK-nin bu əraziləri tərk etməsində gördüyünü bildirib.

"Hazırkı situasiyada yalnız bir həll mümkündür - rus ordusu Azərbaycandan çıxarılmalıdır və onda Qarabağda sülhə nail olunacaq. Ancaq onlar nə qədər ki sülhməramlı görüntüsündə Qarabağdadırlar, təxribatlar və terror hadisələri daim mövcud olacaq", ekspert qeyd edib.

### Rusiyali ekspert: "Regionda sülhün bərqərar olmasını istəməyən təsiredici güclər mövcuddur"

Ukraynalı həmkarından fərqli olaraq Rusiya eksperti Yevgeni Mixaylov hesab edir ki, hansısa üçüncü qüvvələr müvəqqəti olaraq Qarabağ ərazisində yerləşdirilmiş rus sülhməramlı kontingentini pis vəziyyətdə qoymağa çalışır.

"Qanunsuz erməni silahlı dəstələrinin təxribatları nəticəsində baş vermiş kədərli hadisələr 2020-ci ilin noyabrında əldə olunmuş üçtərəfli razılaşmanı kölgədə qoymağa davam edir. Mənim nəzərimcə, RSK-nın nəzarət etdikləri ərazidən erməninin açdığı snayper atəşi nəticəsində azərbaycanlı hərbi qulluqçunun xaincəsinə öldürülməsi təsadüfi hadisə deyil", Mixaylov deyib.

Onun sözlərinə görə, hadisənin məhz Minskdə - Rusiya, Azərbaycan və Ermənistan XİN başçılarının görüşü zamanı törədilməsi də sübut edir ki, Bakı ilə İrəvan arasında münasibətlərin birdəfəlik tənzimlənməsi ətrafında müzakirələrin aparılmasını, eləcə də regionda sülhün bərqərar olmasını istəməyən təsiredici güclər mövcuddur: "Bundan başqa həmin güclər rus sülhməramlılarını məqsədli şəkildə etibarsız etməyə çalışırlar və bununla da xaincəsinə arxadan zərbələr endirirlər. Bəli, əlbəttə, mən 2020-ci ilin noyabrındakı üçtərəfli bəyanatın bəndlərindən birini xatırlayıram ki, RF-nın sülhməramlıları Qarabağa daxil olduqları zaman erməni silahlı dəstələri oradan çıxarılırlar. Bunun nəyə görə baş vermədiyini mən anlamıram. Lakin kifayət qədər aydındır ki, bu məsələdə Rusiyanı ittiham etməyə dəyməz. Moskva sülhün əldə olunması üçün maksimum güc nümayiş etdirir, lakin müxtəlif səbəblərə görə quldurların tam şəkildə məhv edilməsi mümkün deyil. Rusiya yenə də erməni siyasətçilərinə inandı ki, onlar Qarabağ ərazilərindən silahlıları çıxarmağa boyun olurlar, hansı ki, İrəvanda biriləri bir söz deyirlər, digərləri isə kəskin olaraq əks fəaliyyət göstərirlər, ümidlər isə boş yerə imiş".



### "Azərbaycan hərbi qulluqçusunun öldürülməsindən sonra məsələ kardinal şəkildə həll edilməlidir"

Y.Mixaylov antiterror əməliyyatlarının keçirilməsinin tərəfdarı olduğunu ifadə edib: "Bu zaman belə bir fikirə imkan verə bilərəm ki, rus sülhməramlıları Bakı ilə müəyyən razılaşmalardan sonra Azərbaycan SQ-nə daha əvvəl əldə edilmiş razılaşmaları pozanların məhv edilməsi üçün antiterror əməliyyatlarını keçirməyə razılıq versinlər. Sülhməramlılar isə dinc sakinlərin təhlükəsizliklərini qorusunlar. Bu, bir variantdır".

O, bildirib ki, növbəti təxribatların baş verməməsi üçün, xüsusilə Azərbaycan hərbi quluqçusunun öldürülməsindən sonra məsələ kardinal şəkildə həll edilməlidir.

"İstənilən halda iş sülh sazişinin imzalanmasına doğru gedir və Qarabağın Azərbaycandan kənar hər hansı statusu barədə isə söhbət ümumiyyətlə mövcud deyil. Orada qalan qanunsuz silahlıların sıxışdırılaraq çıxarılmalarına gəlincə isə onlar ya tam şəkildə məhv edilməli, ya da tərksilah edilərək törətdikləri cinayətlərinə görə cəzalandırılmalıdıalr. Əgər cinayət edənlər yoxdursa, bu zaman Azərbaycan Resublikasının qanunlarına görə amnistiya verilməlidir", Y.Mixaylov bildirib.

*Rövşən RƏSULOV*

## YAP Səbail rayon təşkilatının aparat əməkdaşları şəhid Cəmil Məmmədlinin məzarını ziyarət ediblər



YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və aparat əməkdaşları Vətən müharibəsi şəhidi Məmmədli Cəmil Habil oğlunun məzarını və ailə üzvlərini ziyarət ediblər. Vətən müharibəsində Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Məmmədli Cəmil Habil oğlu döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur Döyüşçü" medalları ilə təltif olunmuşdur. Şəhid Cəmil Məmmədlinin ailə üzvləri şəhid ailələrinin, qazilərimizin, hərbçilərimizin Ölkə başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və Yeni Azərbaycan Partiyasının hər zaman diqqət və yüksək qayğısı ilə əhatələndiklərini bildirmişlər.



*Rəfiqə*

## Zaqatalada şəhid Sayad Hacıyevin ildönümü ilə əlaqədar məzarı ziyarət edilib



YAP Zaqatala rayon təşkilatının, Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, rayonun Heydər Əliyev Mərkəzinin əməkdaşları, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din xadimləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Bazar kənd sakini Hacıyev Sayad Azad oğlunun ildönümü ilə əlaqədar məzarını ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini böyük ehtiramla yad ediblər.



Daha sonra şəhid Sayad Hacıyevin ailəsini ziyarət edərək, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib və nümunəvi gənclər kimi cəmiyyətin rəğbətini qazandığını vurğulayıblar. Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını ifadə edərək, minnətdarlıqlarını bildiriblər.

*Zümrüd BAYRAMOVA*

## Samuxda şəhid Mürsəlzadə Elməddinin ildönümü qeyd olundu



44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn Samux rayon, Əhmədbəyli kənd sakini Mürsəlzadə Elməddin Cəsur oğlunun ildönümü məzarı önündə qeyd olundu. Tədbirdə iştirak edən Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, dindarlar, ağsaqqallar şəhidin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər. Həmçinin tədbirdə şəhidin keçdiyi döyüş yolundan, qəhrəmanlığından danışıldı. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib. Xatırladaq ki, oktyabrın 17-da Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Elməddin Mürsəlzadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

*İlham*

## YAP Qazax rayon təşkilatında müstəqilliyin bərpasının 30 illiyi ilə əlaqədar videokonfrans keçirilib



Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyi ilə əlaqədar 18 oktyabr 2021-ci il tarixdə YAP Qazax rayon təşkilatında videokonfrans keçirilmişdir. Videokonfransı YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Həmid Pənahov açaraq bildirmişdir ki, Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan, dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir. Çünki dövlət müstəqilliyi hər bir xalqın tarixində əldə edə bildiyi ən yüksək nailiyyətdir. Azərbaycan ötən illər ərzində böyük inkişaf yolu keçib. Bu inkişafın əsasını Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi siyasət təşkil edir. Tarixi proseslərin gedişi elə gətirib ki, biz bir əsrdə iki dəfə müstəqil dövlət qurmaq imkanına sahib olmuşuq. Biz dövlət müstəqilliyini əldə etmək, qorumaq və möhkəmləndirmək üçün mübarizə aparmış, şəhidlər vermiş bir xalqıq. Ona görə də müstəqillik bizim üçün bütün digər anlayışlardan daha dəyərli, daha qiymətlidir.

Videokonfransda BDU Qazax filialının direktor müavini Məmməd Yusifov, Qazax rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev, Qazax şəhər 3 saylı tam orta məktəbin direktoru Ruslan Rzayev, Q.Hacımahmudova adına orta məktəbin direktoru Yeganə Göyüşlü çıxış etdilər. Müstəqillik illərində ölkəmizin qazandığı nailiyyətlərdən danışdılar. Videokonfransı YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Həmid Pənahov yekunlaşdırdı.

*Rəfiqə*

## Zərdabda 18 oktyabr "Müstəqilliyin Bərpası Günü" qeyd olunub

18 oktyabr "Müstəqilliyin Bərpası Günü" münasibətilə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə, İcra başçısının müavinləri, YAP Zərdab rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Pərvin Mahmudova, bir qrup YAP fəalı, hüquq-mühafizə orqanlarının rəhbərləri, Ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüş, ruhuna ehtiramlarını bildirmişlər. Daha sonra Zərdab rayon Gəlmə kəndində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstələri düzülmüş, ruhlarına dualar oxunmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Zərdab rayon Gəlmə kəndində inşa edilmiş tibb məntəqəsinin açılışı olmuşdur.

Tədbiri giriş sözü ilə açan İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadə çıxış edərək, tibb müəssisəsinin istifadəyə verilməsinin kənd həyatı üçün önəmli hadisə olduğunu vurğulamışdır. İcra hakimiyyətinin başçısı Prezident İlham Əliyevin, birinci xanım, Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Azərbaycanın bütün regionlarında, o cümlədən Zərdabda da həyata keçirilən sosial layihələrdən danışmışdır. Zərdab rayon Gəlmə kənd sakinləri ölkə başçısı cənab İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevaya Gəlmə kəndində inşa edilən tibb məntəqəsi üçün təşəkkür etmiş və görülən işdən məmnun qaldıqlarını bildirmişlər.



*Zümrüd*

# Təqvimə fəxarətlə yazılan tarixlər



**Xalqın tarixində yaşanan ictimai-siyasi hadisələrin, baş verən əlamətdar günlərin, zəfərlərin ildönüm günləri mövcuddur və əlbəttə ki, bu günlərin təqvimdə əbədiləşməsi, qeyd olunması vacibdir. Həmin əlamətdar hadisələrin təqvimdə qeyd edilməsi, əbədiləşdirilməsi ilə yanaşı, təqvimdə doğru-düzgün adlandırılması da mütləq şərtdir.**

Bu zamana qədər "Respublika Günü" kimi qeyd edilən 28 may tarixinin bundan sonra "Müstəqillik Günü" kimi adlandırılması, eləcə də 18 oktyabr tarixinin "Müstəqilliyin Bərpası Günü" kimi təqvimdə yer alması həqiqətən də çox doğru addımdır və qeyd edildiyi kimi, bu tarixlərin təqvimdə doğru-düzgün adlandırılması deməkdir. Hər iki tarixin təqvimdə düzgün adlandırılması siyasi prosesi necə təqvimləşdirmək məsələsində məntiqli qərar verilməsi kimi dəyərləndirilməlidir.

Tarixə ekskursiya etsək, bir sıra məsələlərin təhlilini aparsaq görərik ki, qeyd olunan tarixi günün adının dəyişdirilməsi və eləcə də müstəqilliyin bərpa edilməsi ilə bağlı tarixin təqvimdə qeyd olunması çox məntiqidir. Hamımız bilirik ki, Azərbaycan xalqının müstəqillik arzusu XX əsrin sonu yaranmayıb. Əksinə, belə bir arzunun ilk baş qaldırdığı dövr əsrin əvvəllərinə təsadüf edir. Həmin zamanlarda doğma Azərbaycanımızı siyasi meydanda imperiyanın caynağından qoparmaq istəyən, buna nail olan və məhz bu fəaliyyətlərinə görə xalqın hörmətlə yad etdiyi fədakar ziyalılarımızın səyləri, mübarizəsi sayəsində xalqımızın bu müqəddəs arzusu gerçəkləşdi, ölkəmiz öz müstəqilliyini 1918-ci ildə qazandı. Həmin il 28 may tarixində "İstiqlal Bəyannaməsi" imzalandı, Azərbaycan müstəqilliyini dünyaya bəyan etdi, Azərbaycanın ilk parlamenti, hökuməti formalaşdı, dövlət atributları təsis olundu, sərhədləri müəyyənləşdi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı.

Maraqlı bir sual ortaya çıxır ki, 28 may tarixində "İstiqlal Bəyannaməsi" imzalanması günü niyə "Respublika Günü" kimi qeyd edilməlidir? Bu tarixdə ölkəmiz, məsələn, respublika idarə üsuluna keçməmişdi ki, bu gün "Respublika Günü" kimi qeyd edilsin. Axı imzalanan "İstiqlal Bəyannaməsi" ilə müstəqillik əldə edildi və bu gün məhz "Müstəqillik Günü" kimi təqvimdə qeyd olunmalı idi. Sevindirici haldır ki, artıq bundan sonra həmin tarix məhz doğru-düzgün şəkildə, yəni "Müstəqillik Günü" olaraq təqvimə yazılır. Elə ona görə də bu tarixin təqvimdə "Müstəqillik Günü" kimi qeyd olunması, bir az öncə vurğulandığı kimi məhz məntiqi yanaşma, məntiqi addımdır deməkdə hər kəs haqlıdır.

Bəzən bu tarixin "Respublika Günü" deyil, "Müstəqillik Günü" kimi adlandırılmasına görə narazı fikirli olan insanlara da rast gəlinə bilər və görünür həmin fikirərə sahib olan insanların maariflənməsinə, onlara doğru-düzgün məlumatların çatdırılmasına, məntiqi yanaşmanın hansı olduğunun izah edilməsinə ehtiyac duyulur. Məsələ burasındadır ki, bəziləri bu tarixin, "Respublika Günü" tarixinin indi "Müstəqillik Günü" kimi qeyd edilməsi ilə ölkənin respublika idarə üsulundan imtina etməsi kimi qəbul edir, yaxud elə başa düşür və bununla da yanlışlığa yol verir. Heç də Azərbaycan respublika idarə üsulundan imtina etmir və "Respublika Günü" tarixinin indi "Müstəqillik Günü" olaraq təqvimdə qeyd olunması heç də onların düşündüyü demək deyil. Bu baxımdan hansısa təlaş keçirməyə qəti şəkildə lüzum yoxdur və bir sözlə, təlaşlanmağa dəyməz.

Məsələ burasındadır ki, ötən əsrin əvvəlində "İstiqlal Bəyannaməsi" imzalayan, müstəqillik əldə edən dövlətimiz cəmi 23 aydan sonra yenə də Rusiya imperiyasının təsiri altına düşməli oldu. Yenicə müstəqilliyini elan edən, kövrək addımlarını atan Azərbaycan imperialist siyasətə davam gətirə bilmədi və məhz bu siyasətin də qurbanına çevrildi. Bunun ardınca da düz 70 il müddətində Sovet imperiyası müstəqillik meyillərinin yaranmasına belə imkan vermədi, bu ideyaları daşıyan insanların ideyalarını belə yerində boğdu. Müstəqillik barədə düşünmək istəyində belə olan insanlar repressiyalara məruz qaldı, Sibirə sürgün edildi və bir sözlə, 70 il müddətində müstəqilliyi bərpa etmək mümkün olmadı.

Ötən əsrin sonlarında tarix Azərbaycan xalqına öz müstəqilliyini bir daha qazanmaq fürsəti verdi. Azərbaycan öz müstəqilliyini 1991-ci ilin oktyabrında təkrar əldə etdi. Daha dəqiq desək, Azərbaycan əslində öz müstəqilliyini 1991-ci ildə bərpa edə bildi. Dövlət müstəqilliyinin bərpası ilə bağlı 1991-ci il oktyabrın 8-də başlanan Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında müzakirələr 4 gün sürdü. Bir neçə gün davam edən müzakirələrin ardınca nəhayət, 1991-ci il oktyabrın 18-də tarixi sənəd - "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi. Yəni, qısa şəkildə desək, müstəqillik bərpa olundu. Bunun ardınca dövlət müstəqilliyimizi dünyada ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə, sonra 11 dekabrda Rumıniya, 13 dekabrda Pakistan, 23 dekabrda İsveçrə, 25 dekabrda İran, 23 yanvarda ABŞ, 10 apreldə Rusiya və başqa dövlətlər tanıdı. Artıq 2 mart 1992-ci il tarixində Azərbaycan müstəqil dövlət kimi BMT-yə üzv qəbul edildi.

İndi tarixi faktları bir-biri ilə uzlaşdırsaq, daha dəqiq və məntiqi nəticəni hasil edə bilərik. Beləliklə, əsrin əvvəlində və sonunda baş verən bu iki tarixi hadisə arasında diqqət çəkəcək bir fərq var. Əvvəla, ilk müstəqillik tarixi 1918-ci ildən başlayır və biz uzun illərdir 28 mayı "Müstəqillik Günü" kimi deyil, "Respublika Günü" kimi qeyd edirik. Əslində isə, "İstiqlal Bəyannaməsi"nin imzalandığı tarixin doğru adı "Müstəqillik Günü" olmalı idi. İndi biz məhz buna nail olduq və artıq düzgün və məntiqi şəkildə adlandırırıq. Digər tərəfdən, 1991-ci ildə isə biz müstəqilliyimizi ilk dəfə qazanmadıq. Qeyd etdiyimiz kimi, bizim fədakar ziyalılarımızın səyi və mübarizəsi sayəsində 1918-ci ildə müstəqilliyimizi qazanmışdıq. İndi biz bu müstəqilliyi bərpa etdik. XX əsrin sonundakı mübariz nəsil, mübariz və vətənpərvər insanlar sələflərinin idealını başa çatdırdı və müstəqilliyimiz bərpa edildi.

Maraqlıdır, əgər müstəqilliyimiz 18 oktyabr tarixində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildisə, bu tarix "Müstəqillik Günü" kimi xalqımızın tarixinə, təqviminə yazılmamalıdırmı? Əlbəttə ki, yazılmalıdır. Özü də qırmızı hərflərlə, bir də fəxarətlə. Ona görə fəxarətlə yazılmalıdır ki, 70 il müddətində bu xalqı əzməyə, sındırmağa, milli dəyərlərini, dövlətçilik ənənələrini, müstəqillik ideyalarını boğmağa çalışanlar xalqın əzmi, iradəsi və fədakarlığı sayəsində buna nail ola bilmədi. Bu, həqiqətən də fəxarət hissi doğurur və xalqın bu günü, 18 oktyabr tarixini qürurla qeyd etməyə sözün əsl mənasında haqqı var.

Əlbəttə ki, müstəqilliyin bərpası, onun bir də qorunub saxlanması, əldən verilməməsi heç də asan başa gəlmədi. O zaman, daha dəqiq desək, 1993-cü ildə müstəqilliyin itirilməsi təhlükəsi təkrarən yarandı. Lakin böyük siyasi xadim Ulu Öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı ilə Azərbaycanın müstəqilliyi möhkəm təməl üzərinə qoyuldu. Müstəqilliyimizin dayaqları möhkəmləndirildi və bu müqəddəs işdə Ümummilli Liderin misilsiz xidmətləri danılmazdır. Xalqın Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi yol xəritəsi, strategiya və bu yolun layiqli davamçısı cənab Prezident İlham Əliyevin qətiyyəti, uzaqgörənliyi, düşünülmüş siyasəti, liderlik keyfiyyətləri və rəhbərliyi sayəsində bu günə kimi ölkəmizin müstəqilliyi ciddi şəkildə qorunur və Azərbaycan heç bir ölkənin təsir dairəsinə düşmədən, müstəqil şəkildə siyasət yürüdür, suverenliyini, ərazi bütövlüyünü qoruyur, öz inkişafı istiqamətində uğurlu addımlar atır.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu günü tamam fərqli ab-havada, atmosferdə qeyd edir. Bu günü öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq olaraq qeyd edən xalqımızın indi qürur hissi keçirməyə daha çox haqqı çatır. Çünki, Azərbaycan artıq müstəqilliyini də bərpa edib, ardınca bu müstəqilliyi möhkəmləndirib də, üstəlik, 30 ilə yaxın işğal altında saxlanılan, viran qoyulan torpaqlarını da geri qaytarıb, işğaldan azad edib, ərazi bütövlüyünü bərpa edib. Azərbaycan müstəqilliyinin bərpa edilməsinin 30-cu ilini artıq torpaqlarını işğaldan azad edən ölkə olaraq qeyd edirsə, bu hadisə daha əlamətdar hesab olunmalıdır.

Bəli, tarixi hadisələrin düzgün tətbiqinin əsl zamanıdır. Təqvimdə 28 may tarixi "Müstəqillik Günü", 18 oktyabr tarixi isə "Müstəqilliyin Bərpası Günü" kimi yenilənməli, bu da təsbit olunmalıdır. Bu, birmənalı olaraq Azərbaycanın dövlət suverenliyinin məhz 1918-ci ildə bərqərar edilməsi faktına əsaslanır və bu, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu göstərir.

***İnam Hacıyev***

# Pərvin Mahmudova: "Müstəqilliyin Bərpası Gününü qalib xalq kimi qeyd edəcəyik"

"Tarixin müxtəlif dövrlərində təbii sərvətləri və strateji-coğrafi mövqeyinə görə, zaman-zaman güclərin diqqət mərkəzində olan Azərbaycan təzyiqlərə məruz qalaraq mücadilə edib və öz azadlığı, müstəqilliyi uğrunda qanlı savaşlarda olub. Gərgin ictimai-siyasi proseslərdə xalqın müstəqillik arzusu və mübarizəsi heç vaxt tükənməyib. Ölkəmizin çoxəsrlik tarixində 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik, parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması yeni səhifə oldu". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının sədri səlahiyyətlərini icra edən Pərvin Mahmudova bildirib. O, qeyd edib ki, AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olub: "AXC qısa müddətdə genişmiqyaslı demokratik islahatlar həyata keçirib və xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olub. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub. Belə ki, milli ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb".

Dövrün nadir sistemi olan AXC-nin cəmi 23 ay yaşadığını qeyd edən P.Mahmudova 71 ildən sonra, Sovet İttifaqının dağılması ilə Azərbaycanın öz müstəqilliyini bərpa etdiyini bildirib: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etdi. Müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə, 23 ay ərzində, mövcud olan və müsəlman Şərqində ilk dünyəvi-demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Tarixi reallıqlar, bir daha göstərdi ki, sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilmədi".

AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur. Ölkəmizin müstəqillik illərində qazandığı nailiyyətlərin bünövrəsi, əlbəttə ki, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, - deyən P.Mahmudova Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdiyini diqqətə çatdırıb: "Müstəqilliyinin ilk illərində ölkəmiz çətinliklərlə üzləşdi və 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi"nin imzalanması Azərbaycanın iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşulması ilə nəticələndi. Əlverişli coğrafi mövqedə yerləşən, mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan Cənubi Qafqazın geoiqtisadi və logistik mərkəzi kimi tanınır. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan ölkəmiz müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və onun əbədiliyi təmin edilir. 30 illik müstəqillik tariximizdə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Cənab Prezident İlham Əliyevin bildirdiyi kimi, "Bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və heç vaxt, çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır."

2020-ci ildə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin 44 gün ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etməsi dövlətimizin gücünü, ordusunun qüdrətini, xalq-iqtidar birliyinin sarsılmazlığını göstərdi, - deyə P.Mahmudova bildirib: "Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik". - deyən Cənab Prezident bildirib ki, biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. 44 günlük Vətən müharibəsi nəticəsində tamamilə məğlub edilmiş Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bu gün işğaldan azad olan torpaqlarımızda abadlıq-quruculuq işlərinə başlanılıb. Biz əzəli torpaqlarımıza qayıdırıq".

"Azərbaycan xalqı 1991-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Artıq 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 May Azərbaycan Respublikasında Müstəqillik Günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə Müstəqilliyin Bərpası Günü kimi qeyd olunacaq. Bu, tarixi bir zərurətdir. Bu gün Azərbaycan xalqı bu tarixi günü qələbə əzmi ilə öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq olaraq qeyd edəcək", - deyə Pərvin Mahmudova bildirib.

***Zümrüd BAYRAMOVA***

# Antimilli qüvvələr - erməni lobbisinə dəstək verənlər...

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə radikalların əsl simasını xalqımıza açıb göstərib. Ağır döyüşlər zamanı susan, müharibədən sonra Azərbaycanın igid əsgər və zabitlərinin canı, şəhidliyi hesabına əldə edilən uğurları, qələbəni aşağılamağa çalışan bu antimilli qüvvələr Ermənistanın məğlubiyyətini həzm edə bilmirlər. Çünki bu qələbə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılıb. Antimilli şurada təmsil olunan radikal ünsürlər müxtəlif üsul və vasitələrlə Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətə kölgə salmağa çalışırlar. Radikallar hazırda Ali Baş Komandanın ictimai rəydə olduqca yüksək olan reytinqinə zərər vurmağa cəhdlər edirlər. Amma bütün bunlar mənasız cəhdlərdir. Çünki ölkə Prezidenti İlham Əliyev ordumuzun müzəffər Ali Baş Komandanı kimi sözün həqiqi mənasında tarix yazdı. Dövlət başçısı İlham Əliyev 44 günlük müharibədə möhtəşəm qələbə qazanmaqla böyük Sərkərdə, güclü Ali Baş Komandan, xalqın Lideri kimi Azərbaycanın tarixinə əbədi olaraq həkk olundu.



### “Biz bu tarixi unutmamışıq, gənc nəsil də bilməlidir”

Azərbaycan Prezidenti çıxışlarında dəfələrlə bildirib ki, Azərbaycan Xalq Cəbhəsi və bu gün onun antimilli şurada cəmləşən qalıqları faktiki olaraq Birinci Qarabağ müharibəsi dövründə fərarilik ediblər: ”Biz bu tarixi unutmamışıq, gənc nəsil də bilməlidir. Müharibə gedə-gedə prezident öz vəzifəsini tərk edib, gedib dağ kəndində oturub. Müharibə gedir, insanlar ölür, torpaqlar əldən gedir, ölkənin prezidenti, Ali Baş Komandanı qaçır, gedir Naxçıvan Muxtar Respublikasının dağ kəndində oturur. Bu, fərarilik deyil, nədir? İndi bu antimilli şurada rəhbərlik edənlər, harada idiniz müharibə dövründə? Qaçıb gizlənmişdilər. İndi də qaçıb gizlənir, biri Amerikada oturub, oradan mühazirələr oxuyur və düşmənin dəyirmanına su tökür. Onu kim maliyyələşdirir? Kim ona istiqamət verir? Biz bilirik. Buradakılara kim istiqamət verir? Həmin qüvvələr. Ermənipərəst qüvvələr, müharibə dövründə bizə qarşı çirkin əməllərdə iştirak edənlər, bizim qələbəmizi əlimizdən almaq istəyənlər, ermənilərə dəstək verənlər antimilli şuranın havadarlarıdır və onlar fəraridirlər, satqındırlar, xaindirlər. Xalq da bunu bilməlidir və gənc nəsil də bilməlidir”.

Dövlət başçısı onu da bildirib ki, bəzi hallarda gənc nəslə bu biabırçı tarix haqqında kifayət qədər məlumat verilmir: ”Bu, orta məktəb, ali məktəb dərsliklərinə salınmalıdır. Bu qara səhifə dərsliklərə salınmalıdır. Gənc nəsil Şuşanı, Laçını, Xocalını, Kəlbəcəri satanları, fərarilik edənləri, torpaqlarımızın itirilməsinə imkan yaradanları tanımalıdır. Bu günə qədər orada-burada sülənir Şuşanı satan satqın. Onlar bəla gətirdilər, faciə gətirdilər, günahsız insanların həlak olmasına şərait yaratdılar, insanları müdafiə etmədilər. Xalq Cəbhəsi-Müsavat hakimiyyəti qaçdı gizləndi, təslim oldu, biabır oldu. Ondan sonra otuz il ərzində elə bil ki, bunlar deyil bu torpaqları satanlar. Elə bil ki, bunlar deyil döyüş meydanından qaçanlar, bunlar deyil müharibə dövründə Gəncəni bombalayanlar, Azərbaycan əsgərini əsir götürənlər. Bunlardır. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır”.

### Qərbin qoltuğuna sığınan, ermənilərin yedəyində sürünən, dini radikalların əmmaməsində gizlənən Əli Kərimli kimilər...

Bəli, Azərbaycan xalqı və Azərbaycan gəncliyi antimilli şuranın xain, satqın missiyasını müharibə dövründə də görüb. Və Qərbin qoltuğuna sığınan, ermənilərin yedəyində sürünən, dini radikalların əmmaməsində gizlənən Əli Kərimli kimilərin satqınlığını unutmayıb, unutmayacaq da! ”Bəyə, xana yaradı, keçəl qıza yaramadı” atalar məsəli bu gün özündən və ermənilərdən başqa hamıda, hər sahədə nöqsan axtaran müxalif düşərgənin radikal qanadına toplaşanlar, xüsusilə bu sahədə öndə gedən AXCP sədri Əli Kərimli üçün deyilib. Belə ki, Əli Kərimli təfəkküründə olan Sevinc Osmanqızı, Vidadi İsgəndərli, Qənimət Zahid, Xədicə İsmayıl, Gültəkin Hacıbəyli, Əli İnsanov kimi ”sapı özümüzdən olan baltalar”ın gəzmədiyi və kəsmədiyi budaq qalmayıb. Azərbaycanı istəməyən qüvvələr tərəfindən maliyyələşdikləri üçün ölkəmizlə bağlı təxribat kampaniyalarının fəal iştirakçıları olan antimilli dairələr qaşınmayan yerdən qan çıxarmaq üçün dəridən-qabıqdan çıxırlar. Ağalarının əmrlərini kor-koranə yerinə yetirən bu bədbəxtlər, daha doğrusu, robotlar sağlam düşüncə tərzindən məhrum olduqları üçün manqurtlaşıblar. Satirik şairimiz Mirzə Ələkbər Sabirin təbirincə desək dinləri, imanları olan dollardır. Əksinə, şəhidlərimizin qanı bahasına qazanılan Qələbəmizə qara yaxaraq cəmiyyəti çaşdırmağa çalışırlar. Milli Ordumuzun döyüş təcrübəsinin digər ölkələrin hərbçiləri tərəfindən bəyənildiyi, öyrənildiyi bir məqamda əsgər və zabitlərimizin qanı-canı bahasına qazanılan uğurlarımızla bağlı böhtanlar söyləmək şərəfsizlik, satqınlıq, milli xəyanətdir.

### Anti-milli qüvvələr Xocalı qatilinin qoltuğuna sığınıb

Prezident İlham Əliyev Suqovuşanda ictimaiyyətlə görüşü zamanı əli Azərbaycan xalqının qanına bulaşmış, birinci Qarabağ müharibəsində Ermənistana havadarlıq edən qüvvələrin gücü ilə, o cümlədən bir zamanlar Azərbaycana rəhbərlik edən AXC-Müsavat cütlüyünün bəzi üzvlərinin xəyanəti nəticəsində Azərbaycan torpaqlarını işğal edən Serjik Sarkisyan haqqında öz fikirlərini bildirib: ”Serjik Sarkisyan Xocalı qatili, cinayətkar məxluqdur. Bu adam ömrü boyu oğru, cinayətkar, saxtakar, xain, satqın, fərari kimi tanınıb. Serjikin oğurluğu haqqında Ermənistanda bilməyən yoxdur. Bu gün onunla əlbir olan ”müharibə qəhrəmanları” artıq ya həbsdədir, ya cəhənnəmdədir. ”Tuşonka” satan və artıq cəhənnəmdə yanan, Serjikin sağ əli olan ”general” Ermənistan ordusunun və Serjikin əsl simasını göstərir”. Ona görə də Prezident İlham Əliyev çıxışı zamanı Serjik Sarkisyanın Azərbaycan haqqında heç bir söz deməyə haqqı olmadığını bildirib və layiq olduğu sözlərlə onu yerində oturdub: ”Serjik Sarkisyan Vətən müharibəsində qorxusundan qaçıb siçovul yuvasına girmişdi. İndi də həmin yuvadan bir neçə saniyəlik çıxır, ölkəmiz haqqında cəfəng fikirlər səsləndirib geri qayıdır”.

Bu gün xəyanətkar missiyalarını yerinə yetirənlər - Əi Kərimlilər, Arif Hacılılar, Cəmil Həsənlilər, Gültəkin Hacıbəylilər, eyni zamanda onların Qərb ölkələrində zibilliklərdə eşələnlər - Sevinc Osmanqızı, Qənimət Zahid, Arif Məmmədov, Vidadi İskəndərli və bu kimi məfumlar Milli Şuranın üzvləri Serjik Sarkisyanı müdafiə etməsi təəccüb drğurmur. Çünki satqın satqını, cinayətkar cinayətkarın yanında olar.Azərbaycan xalqı isə antimilli və xəyanətkar mövqedə olan bu marginal qruplaşmaya öz yerini çoxdan göstərib, onları tarixin tozlu arxivinə göndərib. Radikal ünsürlərin bu cür vasitələrlə siyasi reabilitasiya cəhdləri isə hər zaman olduğu kimi, iflasa məhkumdur!Həmçinin, bir həqiqəti də xainlər və xəyanətkarlar bilməlidirlər ki, əməllərinə görə yaxın zamanlardı cəzalarını çəkəcəklər. İstər Ə.Kərimlisi olsun, istərsə də işğalçı ölkənin Nikol Paşinyanı, Serj Sakisyanı olsun hər kəs xalq qarşısında cəzalarını çəkəcəklər. Həm də yaxın zamanlarda.

***Rəfiqə HÜSEYNOVA***

## “Müxalifətin gözlədiyi sosial aksiyalar baş verməyəcək”

“Əhalini etiraz aksiyalarına çağıranlar Əli Kərimlinin rəhbərlik etdiyi AXCP, Əli Əliyevin rəhbərlik etdiyi Vətəndaş və İnkişaf Partiyası və başqalarıdır. İndiki şəraitdə aksiyaların keçirilməsi yolverilməzdir. Sözügedən şəxslər bu məsələdən bəhrələnmək istəyir. Enerji daşıyıcılarının müəyyən qədər milli maraqlara uyğun artırılmasından müxalifət öz siyasi məqsədləri üçün istifadə etməyə çalışır və sosial şəbəkələrdə aksiyalara çağırışlar edirlər. Ancaq müxalifətin məlum qanadının gözlədiyi kimi Azərbaycanda ciddi və geniş füsətdə sosial aksiyalar baş verməyəcək. Vətən müharibəsi dönəmində ciddi əməkdaşlıq edən müxalif siyasi partiyalar qazın və elektrik enerjisinin qiymətinin artmasını bir qədər anlaşıqlı şəkildə yanaşırlar”. Bunu SİA-ya açıqlamasında MDHP sədr müavini Elşən Manafov deyib.

E.Manafov bildirib ki, biz anlayırıq ki, dünyada enerji resurslarının qiymətinin qalxdığı şəraitdə Azərbaycan dövləti də bu addımı atmaq məcburiyyətində qaldı: ”Nəticə etibarı ilə təbii qazın və elektrik enerjisinin qiymətinin artması ilə bağlı Tarif Şurasının qəbul etdiyi məlum qərarlar var. Amma eyni zamanda bu qərarlarla aztəminatlı əhaliyə güzəştlər nəzərdə tutulub. Azərbaycan Prezidentinin imzaladığı Fərmanla əhalinin əmək haqları və pensiyaları artırılacaq. Azərbaycan dünyanın bir hissəsidir və dünyanın enerji bazarında baş verən hadisələr Azərbaycandan da yan keçmir”.

***GÜLYANƏ***





Təhmasib Novruzov

# Fürsət gözləyənlər...

Qəribədir, qazın və elektrikin qiymətlərindəki cüzi artımla bağlı sosial şəbəkələrdə giley-güzarlar oxuyuruq, ancaq Prezidentin əmək haqqının və sosial ödənişlərin artırılması ilə bağlı Sərəncamından danışan, demək olar ki, yoxdur. Bu, ədalətsizlik, birtərəfli yanaşma deyilmi? Əslində, tarif şurasının bu qərarından cəmiyyətin, sadə insanların əndişələnməsində qeyri-normal bir şey yoxdur. Dünyanın istənilən ölkəsində insanların ailə büdcəsinə zərər vuran belə qərarlar arzuedilən hesan olunmur və cəmiyyətin etirazlarına səbəb olur. Odur ki, bizdə də indiki qiymət artımına olan reaksiya normal qarşılanmalıdır. Ancaq o halda ki, dövlət sadə təbəqənin vəziyyətini nəzərə almasın, sadəcə qiymətlərin artırılması ilə kifayətlənsin. Axi Prezident İlham Əliyev yeni Sərəncamı ilə sosial ödənişlərdə ciddi artımlar təmin edilməsi üçün də paralel qərar verdi! Bu Sərəncam ümumilikdə 1 milyon 800 min nəfərədək vətəndaşımızın əmək haqlarının və sosial ödənişlərinin artırılmasını nəzərdə tutur ki, bu da ən azı dörd milyonadək vətəndaşın həyat şəraitinin yaxşılaşmasına şərait yaradacaq! Vətəndaş rifahının təminatı və həssas qrupların sosial müdafiəsi Prezident İlham Əliyevin siyasətində başlıca istiqamət olduğunun ölkəyə rəhbərlik elədiyi bütün dövrlərdə şahidi olmamışıqmı? Prezident İlham Əliyevin imzaladığı ”Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncam beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin, ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarının yumşaldılmasına və əhalinin sosial müdafiəsinin gücləndirilməsinə dövlətin daim diqqət yetirdiyini göstərən ciddi faktordur. Beləliklə, aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsi onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılır. Bu məqsədlə Nazirlər Kabinetinə əmək haqlarının, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılır. Bu sahədə islahatlar, xüsusilə son illərdə inqilabi xarakter alıb. Konkret statistik məlumatlara ötəri nəzər salaq. Sosial islahat paketləri nəticəsində müavinət və təqaüdlərin, pensiya və əməkhaqqlarının ciddi şəkildə artımı təmin edilib, yeni sosial təminat növləri təsis olunub (Ünvanlı sosial yardım, ödənişli ictimai işlərə cəlbetmə və s.). 2018-ci ilin əvvəli ilə müqayisədə ölkəmizdə orta aylıq nominal əmək haqqı məbləği 39%, əmək pensiyalarının orta məbləği 60%, sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezident təqaüdlərinin orta məbləği 2,2 dəfə artıb. Son üç ildə ölkəmizdə minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5%-dən 2020-ci ildə 38%-ə yüksəlib ki, bu da aşağı gəlirli vətəndaşlarımızın rifahının artırılması, layiqli əmək haqqı hədəflərinə nail olunması və həmin nisbətin Avropa Sosial Xartiyası normalarına uyğunluğunun təmin edilməsi yolunda ciddi irəliləyişdir. Hər kəsi, xüsusilə siyasət adamlarını bu rəqəmlər üzərində də düşünməyə və sosial şəbəkələrdə birtərəfli olaraq qiymət artımını bir faciə kimi, bəzən hətta hakimiyyətin xalqa ”zülm etməsi”(?) kimi təqdim etməməyə çağırıram. Heç şübhəsiz, ölkənin sıravi vətəndaşlarindan biri olmaqla, qiymətlərin artımi mənim də ailə büdcəmə mənfi təsir göstərəcək. Ancaq çoxlarindan fərqli olaraq mən tam əminəm ki, dövlət bu zərəri qarşilayacaq və xalq bundan maddi baxımdan əziyyət çəkməyəcək. Nədənsə unuduruq ki, qarşıda Qarabağın yenidən tikilməsi, qurulması kimi on milyardlarla xərc tələb edən nəhəng problem durur. Belə bir vəziyyətdə ölkənin büdcəsini zəruri olmadan sağa-sola səpələmək bizi hansı duruma gətirib çıxarar? Axi bizlər 1988-1995- ci illərin aclıq, səfalət dolu günlərini yaşayanlarıq! Nədən indiki qiymət artimi bu qədər kəskin tənqidlə qarşılanır? Müharibədən çıxmış olkə oldugumuzu nə tez unutduq? Mən hesab edirəm ki, əhalinin həssas təbəqəsinin hisslərindən yararlanmaq istəyən bəzi qüvvələr də fürsəti əldən vermək istəmirlər. Xalqımız bunu da nəzərə almalıdır. Dövlət hamimızındır. Onu çətin duruma salarıqsa, hamımız bunun ağrısını yaşayarıq. Çox istərdim ki, sadə adamlar bəzi populistlərin, siyasət oyunbazlarinin iyrənc təbliğatına aldanmasınlar. Bir daha əmin oldugumu deyirəm ki, dövlət bu problemi tezliklə həll edəcək və bu qiymət artımının insanlara zərərini tam kompensasiya edəcək. Buna inanaq və cibimiz üçün düşmən dəyirmanina su tökənlərdən olmayaq.

# Müstəqilliyimizin bərpası: 1-ci Respublikadan 3-cü Respublikaya aparan yol

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*

1991-ci il oktyabrın 18-də Azərbaycan özünün dövlət müstəqilliyini bərpa edib. Həmin gün respublika parlamenti- Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul edib. Məhz bu səbəbdən 18 oktyabr Azərbaycanın yeni tarixində əlamətdar günlərdən biridir.

Sovet İttifaqının dağılması və "soyuq müharibə"nin sona çatması kimi qlobal geosiyasi proseslər fonunda Azərbaycan Respublikasının dövlət müstəqilliyini elan etməsi olduqca önəmli, tarixi hadisə idi. Azərbaycan xalqı illər uzunu azadlıq, müstəqillik ideyalarını özündə yaşatmışdı. 1918-1920-ci illərdəki elan olunan ilk respublika bu ideyanın gerçəkləşdirdi, amma təəssüf ki, uzunömürlü bir müstəqilliyə imza ata bilmədi və həqiqi müstəqil dövlət kimi beynəlxalq aləmdə yerini tuta bilmədi. Cəmi 2 il ömür sürən ilk respublikamız 1920-ci ilin mayınadək mövcud oldu.

1920-ci ildə 28 aprel sosialist inqilabından sonra yaranmış 2-ci respublika - Azərbaycan Sovet Sosialist Respublikası da müstəqil dövlət kimi 2 il mövcud oldu, 1922-ci ildə Sovet İttifaqına daxil oldu və ümumilikdə 71 il yaşadı.

3-cü respublikanın yaranması isə daha mürəkkəb proseslərdən keçdi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının müstəqil dövlətçiliyə sahib olmaq hissləri digər müttəfiq respublikalara nisbətən daha impulsiv və bariz şəkildə özünü göstərirdi.

Azərbaycanın müstəqillik yolunda mücadiləsi faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlandı. Proseslər 1990-1991-ci illərdə daha geniş və aktiv şəkildə cərəyan etdi. Yanvar hadisələri isə bu aktivliyi, mücadiləni daha da alovlandırdı.

Ermənilərin Azərbaycan ərazisi olan Qarabağda başlatdığı separatçılıq hərəkətlərinə ittifaq hakimiyyətinin və onun rəhbəri Mixail Qorbaçovun ədalətsiz yanaşması xalqı qəzəbləndirdi, xalq meydanlara çıxdı. Bu proseslərin məntiqi nəticəsi Azərbaycanın 1991-ci ilin sonunda ittifaqdan ayrılıb müstəqil dövlət kimi yaşamasına səbəb oldu.

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi. Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı.

Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar da qəbul edildi. Lakin məlum məsələlərdən dolayı respublika rəhbərliyi bu prosesi 2 aya yaxın ləngitdi.

Bu müddət ərzində SSRİ-nin əksər müttəfiq respublikaları, o cümlədən qonşu Ermənistan və Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı və ya qanun qəbul etmişdilər. Azərbaycan isə hələ də gözləyirdi.

Ali Sovetin sessiyasında Azərbaycanın Milli Ordusunun yaradılması məsələsi gündəmə gəldi və "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar verildi. Qərarın icrası isə kağız üzərində qaldı. Bütün bu hadisələr Ermənistanın Azərbaycana qarşı təcavüzü və Qarabağdakı separatçılıq hərəkatının genişlənməsi fonunda baş verirdi.

Sentyabrın 1-də isə separatçılar Dağlıq Qarabağ Muxtar Vilayətinin səlahiyyətini itirmiş Xalq Deputatları Soveti adından qondarma "Dağlıq Qarabağ Erməni Respublikası"nın yaradılması barədə "qərar" qəbul etdilər. Separatçıların bu qərarı elan edilən gün "Azadlıq" meydanında AXC mitinqlərinin qızğın vaxtı idi. AXC Mütəllibovu hakimiyyətdən salmaq üçün ümumrespublika tətili elan etmişdi.

Hakimiyyət uğrunda gərgin mübarizə gedirdi. Qarabağ məsələsi bu mübarizənin kölgəsində qalmış və görünməz olmuşdu. Ali Sovetin oktyabrın 8-də işə başlanan növbədənkənar sessiyanın gündəliyinə dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulu məsələsi salınsa da, dördgünlük müzakirələr nəticəsində parlament bu məsələni bir həftə sonraya saxladı.

Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Səsverməde Ali Sovetin 360 deputatından 258-si iştirak etmişdi. Adbaad səsvermədə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olundu.

6 fəsil, 32 maddədən ibarət Konstitusiya Aktı ümumilikdə olduqca sanballı sənəd olsa da, bir sıra nöqsanlardan da xali deyildi. Xüsusilə 1-3-cü maddələrdə hüquqi-siyasi nöqteyi-nəzərdən o qədər də mükəmməl olmayan, sonralar beynəlxalq müstəvidə ermənilərin çeşidli spekulyasiyalarına rəvac verən təsnifat yer almışdı ki, bu da bizə "başqağrısı" oldu.

Həmin maddələrə əsasən, Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Cümhuriyyətin varisi hesab olunurdu. Azərbaycan SSR haqqında isə heç nə deyilmir, Azərbaycanın 71 illik tarixi hüquqi müstəvidə təsbit olunmurdu, 71 il demək olar ki, tarixdən itirilirdi.

Qeyd edək ki, ermənilər Qarabağın Azərbaycana mənsubluğunu şübhə altına qoymaq üçün məhz bu məqamdan özlərinə uyğun şəkildə bəhrələnərək davamlı olaraq möhtəkirlik edirlər. Çünki Dağlıq Qarabağı Azərbaycanın muxtar inzibati ərazisi kimi birmənalı təsbit edən və beynəlxalq hüquq baxımından mühüm fakt olan qərar 1923-cü ildə, yeni Azərbaycan SSR vaxtında qəbul edilib. 1991-ci ilin Konstitusiya Aktında Azərbaycan SSR-in hüquqi tarixinin əks olunmaması ermənilərə guya Dağlıq Qarabağın heç vaxt Azərbaycanın yuridiksiyasında olmadığı barədə spekulyasiya etmək bəhanəsi verir.




Dekabrın 3-də Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması xahişi ilə BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Dekabrın 8-də Belovejskdə Rusiya, Ukrayna və Belarusiya prezidentləri tərəfindən SSRİ-nin fəaliyyətinə xitam veriləndən sonra beynəlxalq təşkilatlar və dünya dövlətləri digər müttəfiq respublikalar kimi, Azərbaycanın da müstəqilliyini tanımağa başladılar. Dekabrın 9-da İKT Azərbaycanı sıralarına qəbul etdi.

Nəhayət, dekabrın 29-da Konstitusiya Aktı ümumxalq səsverməsinə çıxarıldı və 95 faiz seçicinin iştirak etdiyi referendum müstəqillik faktını rəsmiləşdirdi. Beləliklə, Azərbaycan Respublikası, 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoydu. İrəlidə müstəqilliyin mürəkkəb, keşməkeşli illəri dururdu.

Lakin yenicə müstəqilliyini əldə etmiş ölkənin nə təcrübəli hakimiyyəti, nə maliyyə imkanları, nə ordusu yox idi. Qarabağda alovlanan və qızışan müharibədə uğursuzluqlar bir-birinin ardınca davam edirdi.

İqtisadi və sosial böhran pik həddə çatmışdı. Ölkədə seperatizm və xaos baş alıb gedirdi, dövlətin parçalanması və dağılması təhlükəsi böyümüşdü. Güclü, qətiyyətli və xalqı birləşdirə biləcək bir siyasətçiyə ehtiyac var idi.

Bunu bacaracaq yeganə şəxs, dünyanın ən qüdrətli dövlətinin rəhbərlərindən olmuş, dünya miqyaslı siyasətçi Heydər Əliyev idi. Ümumilli lider xalqın müstəqillik arzularının gerçəkləşməsində, həyata keçirilməsində könüllü olaraq iştirak etmək istəyərək hələ 1990-da Moskvadan Azərbaycana qayıtmışdı. Bu ərəfədə o, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında önəmli tarixi qərarlar qəbul edildi.

Naxçıvanda həyata keçirilən tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, 1918-1920-ci illərdə mövcvud olmuş Azərbaycan Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

1992-ci ildə belə bir şəraitdə bir sıra ziyalılar "Səs" qəzetində həmin vaxt Naxçıvanda Ali Sovetin sədri işləyən Heydər Əliyevə müraciət etdilər. Ümumilli lider müraciətə cavab verdi və ölkənin böhrandan çıxış yollarını göstərdi. Mitinqlərə çıxan kütlə Heydər Əliyevə dəstəkləyir və onu köməyə çağırırdı.

Nəhayət 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Ali ZSovetin sədri seçilən Heydər Əliyev president Əbülfəz Elçibəyin hakimiyyəti qoyub qaçmasından sonra keçirilən seçkilərdə xalqın böyük səs çoxluğu ilə Prezident seçildi. Bununla da, ölkədə xaosa, seperatizmə son qoyuldu. İqtisadi, sosial islahatlar başladı.

Ümummilli lider Heydər Əliyev hər zaman bir fikri vurğulayırdı: "Müstəqilliyi qazanmaqdan daha vacib bir şey var- bu, həmin müstəqilliyi qorumaqdır". Ümummilli lider Azərbaycanın dövlət müstəqilliyini nəinki qorudu, həm də onu elə möhkəmləndirdi ki, bu müstəqillik özünə əbədilik statusunu təmin etdi.

Bu gün Azərbaycan həm siyasi, həm iqtisadi, həm də digər aspektlərdən tam müstəqil güclü dövlətdir. Bu nəhəng prosesi isə ulu öndər Heydər Əliyev gərgin zəhmət əsasında qısa müddətdə yaratdı. İndi həmin prosesi Onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Azərbaycan xalqının ən böyük problemini həll edərək- Qarabağı azad edərək müzəffər sərkərdə kimi adını tariximizə qızıl hərflərlə yazdıran İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafını da təmin edib və ölkəmizin dünya birliyində layiqli yeri tutmasına səbəb olub.

Bu gün ümummili liderin sözləri ilə desək, Azərbaycan dünyaya Günəş kimi doğur. Müstəqilliyimiz əbədi olsun!

***Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

19 oktyabr
2021-ci il

## "Bavariya"dan qol rekordu!



**"Bavariya" özünə məxsus qol rekordunu təkrarlayıb. Qol.az "Opta"ya istinadən xəbər verir ki, Münhen klubu buna Almaniya Bundesliqasının 8-ci turunda "Bayer"ə 5:1 hesabı ilə qalib gələrək nail olub. Beləliklə, "Bavariya" Bundesliqada ilk 8 matçında 29 qol vurub və öz rekordunu təkrarlayıb.**

Münhen təmsilçisi 1976/77 mövsümündə çempionatın açılış oyunlarında rəqiblərinə eyni sayda qol vurmuşdu. Xatırladaq ki, "Bavariya" 8 turdan sonra 19 xalla Almaniya çempionatının turnir cədvəlində liderdir.

# Adam yeyən ayı... axtarılır



***İrkutsk vilayətinin Polovino-Çeremxovo kəndində kənd təsərrüfatı müəssisəsində gözətçi işləyən 45 yaşlı sakini ayı öldürərək...yeyib. Bunu İrkutskda fəaliyyət göstərən "Tayşet24" xəbər agentliyi bildirir.***

Agentliyn yazdığına görə, gözətçinin meyidindən qalan qalıqları fermaya gələn yerli sakinlər tərəfindən tapılıb. Hadisə barədə İrkutsk vilayətinin Meşə Nazirliyinə bildirilib. Adam yeyən ayının ovlanaraq güllələnəcəyi gözlənilir.

*Nazlı*

## Selüliti məhv edən möcüzəli qidalar bunlardır

Əksər insanların ən böyük problemi selülitdir. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, təəssüf ki, qadınların 80-90 faizi selülit problemi ilə üzləşirlər. Yeni inkişaf edən texnologiyalarla selülitlə vidalaşmaq mümkündür, amma pəhrizimizə bir neçə əlavələr ilə bahalı müalicələrə ehtiyac olmadan selülitdən xilas ola bilərik.

Yemişin 91 faizi sudur və eyni zamanda sidik qovucu təsirə malikdir. Yeni bir araşdırma, yemiş suyunun budlarda olan selüliti azaltdığını bildirib. Araşdırmada 31 yaşdan 50 yaşa qədər olan 40 qadına 56 gün müddətində yemiş suyu ekstraktı verilib və selülitlərində nəzərə çarpacaq dərəcədə azalma müşahidə edilib. Yağ və xolesterol ehtiva etmədiyi üçün yemiş da şirin qida istəyini təmin etməyə kömək edir.

Tünd şokolad antioksidan mənbəyidir. Antioksidanlar selülitə səbəb olan yağları parçalayır. Tünd şokolad ürək -damar sistemini də dəstəkləyir və qan axınını aktivləşdirərək selülitin azalmasına kömək edir.



Ən bahalı otlardan olan zəfəran, qan dövranını yaxşılaşdıran və yağ hüceyrələrinin böyüməsinə maneə törədən iltihab əleyhinə xüsusiyyətlərə malikdir. Qan axınını tənzimləyən zəfəran selülitin görünüşünü azaldır. Dərinin altındakı əzələləri dəstəkləyir və portağal qabığı görünüşünü yox edir.

Daha hamar bir dərini təmin edir.

Qırmızı acı bibər bədənin yağ yandırma sistemini aktivləşdirir. Dərinin altındakı yağ hüceyrələrində yığılmış və selülitə səbəb olan toksinləri məhv edir. Dərinin daha hamar görünməsini təmin edən sağlam toxumaları bərpa edir. Qırmızı acı bibər, birləşdirici toxumanı bərpa edən B6 vitamini də ehtiva edir.

Sarımsaq qan axını artırır. Piylənmənin müalicəsində istifadə olunan sarımsaq selülitin müalicəsində də xeyirlidir. Sarımsağın müntəzəm istifadəsi selülitə səbəb olan toksinləri bədəndən çıxarmağa kömək edir.

*Rüqəyya Orucova*

## Hindistanda 70 yaşlı qadın ilk dəfə ana oldu



70 yaşlı Hindistan sakini Jivunben Rabari ilə onun həyat yoldaşı 75 yaşlı Maldhari artıq 45 ilə yaxındır ki, evlidirlər. Qucarat bölgəsinin Kemora kənd sakinləri uzun müddətdir valideyn olmaq arzusundadırlar.

Nəhayət ki, onların xəyalı bu günlərdə gerçəyə çevrilib. Belə ki, ahıl yaşlı xanım Rabari ana olub. Uşağın süni mayalanma ilə dünyaya gəldiyi və səhhətinin yerində olduğu açıqlanıb.

*Ağasəf Babayev*

## Bakcell Bakının mərkəzində yenilənmiş konsept mağazasını təqdim edib

**Bakcell Bakı şəhərində, "Sahil" metro stansiyasının yaxınlığında yeni konsept mağazasını istifadəyə verib. Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni dükan özündə müştəri xidməti, eyni zamanda nömrə və aksessuar satışı funksiyasını birləşdirərək "hər şey bir arada" innovativ konsepsiyası əsasında qurulub.**

Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən yeni mağazanın qurulmasıda müştəri yönümlü yanaşmadan istifadə edilib. Burada abunəçiləri mobil rabitə xidmətlərinə aid bütün məsələlərdə kömək edə bilən xüsusi hazırlıq keçmiş əməkdaşlar qarşılayacaq. İnteryerin sadə zona bölgüsü sayəsində müştərilər üçün bütün lazımi məlumatlar daha əlçatan, müştəri xidməti təmsilçiləri və dükan əməkdaşları ilə ünsiyyət isə daha asandır.




"Əminəm ki, bu konsept mağazada biz hər bir müştərimizə daha üstün keyfiyyətli xidmət göstərəcəyik, çünki bütün yeni açılan mərkəzlərimizdə olduğu kimi, burada da bütün xidmət prosesi "hər şeyin mərkəzində müştəri dayanır" yanaşması üzərində qurulub. Xidmətlərimizi Azərbaycanın bütün regionlarında yaşayan abunəçilərimizə əlçatan etmək məqsədilə biz ölkənin müxtəlif şəhər və rayonlarında yeni konsept mağazaların qurulmasını davam etdirəcəyik. Bu il növbəti dəfə "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülmüş Bakcell şəbəkəsi və özündə yüksək keyfiyyətli müştəri xidməti və satış funksiyasını birləşdirən yeni konsept mağazalar vasitəsilə biz müştərilərimizi bazarda ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcəyik", deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Mağazanın şəhərin mərkəzində yerləşməsini nəzərə alaraq, burada korporativ müştərilərə xidmətin göstərilməsi və B2B görüşlərinin keçirilməsi də nəzərdə tutulub. Qeyd edək ki, Bakcell şirkəti bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**